www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 14-16 iyul 2018-ci il Şənbə № 151 (7040) Qiyməti 60 qəpik

**Xəbər**

## Xəzərdə növbəti faciə: dəniz bir gənci də uddu

yazısı səh.14-də

**Gündəm**

### 10 iyul Gəncə terroru: Moskvadan gələnlər, İran izi və erməni kəşfiyyatı



Terrora çağırış edənlər həbs olunur, beynəlxalq axtarışa verilənlər var...

yazısı səh.5-də

### Putin Azərbaycanın dostu olan rus politoloqu yanından uzaqlaşdırdı

yazısı səh.12-də

### Bakının 4 təkərli "hamamları": problem niyə həll olunmur?

yazısı səh.10-da

### Azərbaycanın Avropa üçün önəmi artır - mühüm gəlişmə

yazısı səh.9-da

### Türkiyədə uğursuz hərbi qiyamın 2-ci ili - həbslər hələ də davam edir

yazısı səh.12-də

### Bakının məşhur restoranında ərəbə görə dava düşdü

yazısı səh.13-də

### Şadlıq evlərinin yay menyusu: təhlükəli qidalar ixtisar edilirmi? - araşdırma

yazısı səh.14-də

### Paytaxtda gələn il yeni metrostansiya açılacaq

yazısı səh.13-də

### Futbol mundialının üçüncüsü kim olacaq? - gözlər Peterburqda

yazısı səh.15-də

### Yeni gətirilən meyvə sortları: üstünlüyü yerli məhsula verək, yoxsa...

yazısı səh.14-də

ELAN:

"Yeni Müsavat" qəzeti yay rejiminə keçdi

yazısı səh.2-də

# "BU CİNAYƏTKARLAR MÜSƏLMAN DEYİLLƏR..." PREZİDENTDƏN GƏNCƏ HADİSƏLƏRİNƏ QƏTİYYƏTLİ MÖVQE

Hüquq-mühafizə orqanlarının rəhbərləri ilə görüşdə dövlət başçısı İlham Əliyev Gəncədə baş verənləri terror kimi qiymətləndirdi; "Bizim siyasi iradəmizə heç bir qüvvə təsir edə bilməz, tutduğumuz yoldan heç kim döndərə bilməz" deyən dövlət başçısı Azərbaycanda siyasi sabitliyi pozmaq istəyən qüvvələrə sərt mesajlar göndərdi




yazısı səh.3-də

# Paşinyanın Avropa fiaskosu - "Bizi başdan elədilər..."

Qərb paytaxtlarından Rusiyaya qarşı qarant və 160 milyon avro almağa gedən erməni baş nazir pərt oldu; Paşinyandan acı etiraflar: "Avropanın bu mövqeyi bizim üçün aydın və qəbuledilən deyil, Ermənistan konkret kömək gözləyirdi, onlar isə..."

yazısı səh.8-də



### Vahid Əhmədovdan Mingəçevir və Gəncə hadisələri ilə bağlı şok açıqlamalar

yazısı səh.7-də



*Fərəc Quliyev:*

### "Onların kökünü birdəfəlik kəsmək lazımdır"

yazısı səh.11-də



### Etibar Pirverdiyevin şübhələri - Azərbaycanı qəsdlə vururlar?

yazısı səh.6-da

YENİ MÜSAVAT
N 151 (7040) 14 iyul 2018



# Tramp Putinlə görüşə ümidsiz gedir

**İyulun 16-da Finlandiyanın paytaxtı Helsinkidə Rusiya prezidenti Vladimir Putin və ABŞ prezidenti Donald Tramp arasında görüş olacaq. D.Tramp Vladimir Putinlə keçirəcəyi görüşdə hansı məsələlərin müzakirə olunacağını açıqlayıb. Xəbərə görə, Tramp Putinlə Suriya və Ukraynadakı vəziyyəti, eləcə də Rusiyanın ABŞ seçkilərinə müdaxiləsini müzakirə edəcəyini deyib.**

"Biz bu görüşə çox şey gözləmədən gedirik. Biz Suriya məsələsini aydınlaşdırmaq istəyirik. Eləcə də biz sizin sevimli sualınız olan seçkiyə müdaxilə barədə soruşacağıq, mən bir daha bu sualı verəcəyəm. Biz digər məsələləri, o cümlədən Ukraynanı da müzakirə edəcəyik", - deyə o, amerikalı jurnalistlərə bildirib.

Trampın sözlərinə görə, V. Putin Rusiyanın ABŞ seçkilərinə müdaxiləsini inkar edə bilər, lakin o, istənilən halda bu məsələni qaldıracağını və bir daha bu halın təkrar olunmamasını istəyəcəyini söyləyib.

İyulun 12-də Brüsseldə NATO sammiti çərçivəsində mətbuat konfransı zamanı isə D.Tramp deyib ki, V.Putinlə görüş proqramı zəngin olacaq: "Görək, nə baş verəcək. Bu görüş səmərəli ola da bilər, olmaya da bilər. Amma fikrimcə, Putinlə görüş əla fikirdir".

**Politoloq Elşən Mustafayev** bildirdi ki, Donald Trampla Vladimir Putin bundan öncə də görüşüblər və bu görüşlərdən sonra Vaşinqton-Moskva münasibətlərində hər hansı bir irəliləyişin şahidi olmamışıq: "Amma təbii ki, belə görüşlərdə dünyanın iki ən güclü hərbi potensialı olan dövlətin birinci şəxsləri arasında qlobal məsələlərlə bağlı maraqların uzlaşdırılması mümkündür. Maraqların uzlaşdırılması isə münasibətlərin yumşalması anlamına gəlmir. ABŞ-Rusiya münasibətlərinin normal məcraya düşməsi üçün ya Vaşinqton, ya da Moskva qlobal geosiyasi iddialarından əl çəkməlidir. Bu isə mümkün deyil. Təbii ki, ABŞ və müttəfiqlərinin iqtisadi gücü ilə Rusiyanın mövcud durumunu müqayisə etmək mümkün deyil. Bununla yanaşı, "yumşaq güc" siyasətinin öz hədəflərinə çatması üçün bəzən on illərlə vaxt sərf etmək lazım gəlir. Amma hərbi təhdid və real hərbi təhlükə qısa yoldur. Rusiyanın hərbi potensialı kifayət qədər güclüdür, nəhəng təbii resursları var və bütün bunlar Moskvanın manevr və müqavimət imkanlarını artırır. Bu baxımdan ABŞ-Rusiya rəqabətinin yaxın dövrdə hansısa tərəfin tam qələbəsi ilə bitəcəyi barədə mülahizə yürütmək sadəlövlük olardı. Qarşıdurma və ziddiyyətlər davam edəcək. Çünki bu, hər iki dövlətin vazkeçilməz geosiyasi və geoiqtisadi maraqlarından qaynaqlanır".

**Politoloq qeyd etdi ki, Tramp-Putin görüşündə hansısa sənədin imzalana biləcəyi indiki münasibətlər müstəvisində inandırıcı görünmür:** "Bunun üçün heç əsas da yoxdur. Ola bilsin, hansısa məsələ ətrafında şifahi razılaşma əldə olunsun. Tərəflər çox güman ki, hansısa regional və qlobal problemlərin həlli ilə bağlı öz üzərlərinə rəsmi öhdəlik götürməyəcəklər.

Bir sıra siyasi təhlilçilər isə hesab edir ki, Donald Tramp hətta istəsə belə, ABŞ-ın Rusiyaya qarşı siyasətini təkbaşına dəyişmək iqtidarında deyil. Odur ki, qarşıdakı görüşdən sensasion nəticələr gözləməyə dəyməz".

**❑ Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

## Oxucuların nəzərinə!

**"Yeni Müsavat" qəzeti bu gündən etibarən yay rejiminə keçib. Yəni öz dövriliyini 6 gündən 5 günə endirib. Belə ki, sentyabrın 15-dək qəzet şənbə günləri ilə yanaşı, bazar günü də nəşr olunmayacaq. "Yeni Müsavat"ın həftə üçün ilk nömrəsi bazar ertəsi deyil, çərşənbə axşamları satışda olacaq.**

**❑ REDAKSİYA**


## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusi-


# Atasının ikinci arvadını öldürən şəxsin məhkəməsində əlbəyaxa dava

**58 yaşlı qadını öldürüb su quyusuna atan Rəhim Bağırov hakim qarşısına çıxarılıb. Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsinə hakim Azər Paşayev sədrliyi ilə məhkəmənin hazırlıq iclası baş tutub. Hazırlıq iclasında təqsirləndirilən şəxsin anket məlumatları dəqiqləşdirilib. Məhkəmənin baxış iclası iyulun 17-də baş tutub.**



Məhkəmə zalında mərhumun yaxınları ilə təqsirləndirilən şəxsin yaxınları arasında gərginlik yaşanıb. Hətta onlar əlbəyaxa da olublar. Məhkəmə nəzarətçiləri tərəfləri sakitləşdirib. Mərhumun yaxınları təqsirləndirilən şəxsin qətli tək törətmədiyini iddia edirlər.

Qeyd edək ki, hadisə ötən il Şamaxı şəhərinin Azadlıq küçəsindəki 52 saylı mənzildə qeydə alınıb. Şəhər sakini, 1960-cı il təvəllüdlü Bağırova Badam Abduləli qızının itkin düşməsi barədə polisə məlumat daxil olub. Axtarış zamanı Badam Bağırovanın meyiti həyətdəki köhnə su quyusundan tapılıb.

Araşdırma zamanı məlum olub ki, hadisəni bir neçə il əvvəl dünyasını dəyişən ev sahibi Hacı Bağırovun birinci arvadı ilə nikahından olan oğlu 1958-ci il təvəllüdlü Bağırov Rəhim Hacı oğlu törədib.

O, atasının ikinci arvadını amansızlıqla qətlə yetirib. Daha sonra onun meyitini yaşadığı evin həyətindəki köhnə su quyusuna atıb. Meyitin üstünə daş və torpaq, ağac atıb.

Ev sahibi Hacı Bağırov dünyasını dəyişsə də, hər iki arvadı öz övladları ilə birgə eyni həyətdə yaşayıb. Mərhum Badam Bağırovanın övladı hadisədən bir gün əvvəl məktəbdən evə gəldikdən sonra anasını tapmayıb. O, axşama kimi anasını axtarıb və itkin düşməsi barədə polis əməkdaşlarına məlumat verib.

Araşdırma zamanı qətli törədən Rəhim Bağırov saxlanılaraq istintaqa təhvil verilib. O, daha əvvəl 8 il məhkumluq həyatı yaşayıb və həbsxanadan yeni çıxmışdı.

**❑ İlkin MURADOV, Musavat.com**

## Sığınacaqda yaşayan qızdan atasına təsirli məktub

**Azərbaycan Uşaqlar Birliyi, Uşaq Sığınacağı-Reinteqrasiya Mərkəzində yaşayan 13 yaşlı qız atasına məktub yazıb. Oxu.az-ın məlumatın görə, məktubu mərkəzin koordinatoru Vasif Akifli öz facebook hesabında paylaşıb.**

"Səni tanımaq istəyirdim. Ən çox sevdiyin rəng, yemək, xoşlamadığın şeyləri bilmək istəyirdim. Səni yaxından tanımaq, sənin haqda çox şey bilmək istəyirəm. Əsas da bir şey niyə, nəyə görə anamı, məni qoydun getdin? İndiki uşaqlarından nə fərqim var? Neyləmişdim sənə? Tam 12 ildir ki, səni görmürəm. Sadəcə, bir dəfə gördüm. Kaş görməzdim. Çünki tək səni yox, uşaqlarını və arvadını gördüm. Kaş görməyəydim. Bəzən heç yadıma düşmürsən. Bəzən sənin üçün çox darıxıram. Amma bunu bil ki, səni heç vaxt bağışlamayacağam, ata", - deyə məktubda qeyd edilib.

## Bu gün Bakıda 35 dərəcə isti olacaq

**Bakıda və Abşeron yarımadasında iyulun 14-də hava şəraitinin yağmursuz keçəcəyi gözlənilir. Arabir güclənən şimal-qərb küləyi əsəcək. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən verilən məlumata görə, havanın temperaturunun Abşeron yarımadasında gecə 24-26, gündüz 30-35, Bakıda gecə 24-26, gündüz 33-35 dərəcə isti olacağı gözlənilir.**

Atmosfer təzyiqi normadan aşağı 756 mm civə sütunu, nisbi rütubət gecə 65-75, gündüz 35-45 faiz təşkil edəcək. İyulun 14-də Abşeronun şimal çimərliklərində (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zuğulba) dəniz suyunun temperaturu 26-27, cənub çimərliklərində isə (Türkan, Hövsan, Sahil, Şıx) 27-28 dərəcə isti təşkil edəcək. Şimal-qərb küləyinin arabir güclənəcəyi ilə əlaqədar, çimərliklərə üz tutanları ehtiyatlı olmağa çağırırıq.

Azərbaycanın rayonlarında iyulun 14-də hava şəraitinin yağmursuz keçəcək. Lakin bəzi şimal və qərb rayonlarında şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturunun gecə 21-26, gündüz 35-40, dağlarda gecə 14-19, gündüz 25-30 dərəcə isti olacağı gözlənilir. İyulun 14 və 15-də Abşeron yarımadasında temperaturun ötən günlərlə müqayisədə aşağı enməsi, mülayim xəzri küləyinin üstünlüyü meteohəssas insanlar üçün münbət amildir.



## Ərdoğan Makronun dəvətini rədd etdi: "İşim var..."

**Fransa prezidenti Emmanuel Makron NATO-nun Brüsseldəki sammitində türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğanı dünya çempionatının finalında gerçəkləşəcək Fransa-Xorvatiya matçını tribunadan izləməyə dəvət edib. Publika.az xəbər verir ki, Ərdoğan dəvətə qarşılıq olaraq "işim var, televiziyadan izləyəcəyəm" cavabını verib və təklifi rədd edib.**

Liderlər sammit çərçivəsində 1 saat 15 dəqiqə görüş keçirib. Makron Ərdoğanı prezident seçkilərində qazandığı uğur münasibətilə təbrik edib. Daha sonra onu ölkəsinin mübarizə aparacağı dünya çempionatının final oyununa dəvət edib. Ərdoğan isə "hökuməti yeni qurduq, görəcək çox işimiz var, televiziyadan izləyəcəyik" cavabını verib.



## Xaçmazda üç istirahət mərkəzi cərimələndi

**Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsi Ekologiya və Təbii Sərvətlər Nazirliyinin müvafiq qurumları ilə birgə respublikanın şəhər və rayonlarında, meşə, park, müalicə-sağlamlıq, turizm zonalarının ərazilərində, su mənbələrinin və mineral bulaqların sanitar mühafizə zonalarında, Xəzər dənizinin sahil zolağında və çimərliklərdə məişət tullantılarının tutumlardan (urnalardan) kənar yerlərə atılması, sənaye və məişət tullantılarının qalaqlanması, su obyektlərinin çirklənməsi və zibillənməsi hallarının qarşısının alınması məqsədilə mütəmadi tədbirlər həyata keçirir. Bu barədə musavat.com-a DİN-dən məlumat verilib.**

İyulun 12-də bu istiqamətdə keçirilmiş tədbirlər nəticəsində Xaçmaz rayonunun Şimali kəndi ərazisində sənaye və məişət tullantılarının qalaqlanması və yandırılması zamanı ətraf mühitin mühafizəsi tələblərinə əməl etmədiklərinə görə "Əlincə" istirahət mərkəzinin icarədarı V.Heydərov və "Sanset" istirahət mərkəzinin icarədarı R.Hüseynov barəsində İnzibati Xətalar Məcəlləsinin 271-ci maddəsi ilə, su obyektlərinin çirklənməsi və zibillənməsinə görə isə "Bulaq" istirahət mərkəzinin müdiri M.Məmmədov barəsində İnzibati Xətalar Məcəlləsinin 264-cü maddəsi ilə protokollar tərtib edilib.

YENİ MÜSAVAT

N 151 (7040) 14 iyul 2018




# "Bu cinayətkarlar müsəlman deyillər..."

# Prezidentdən Gəncə hadisələrinə qətiyyətli mövqe

Hüquq-mühafizə orqanlarının rəhbərləri ilə görüşdə dövlət başçısı İlham Əliyev Gəncədə baş verənləri terror kimi qiymətləndirdi; "Bizim siyasi iradəmizə heç bir qüvvə təsir edə bilməz, tutduğumuz yoldan heç kim döndərə bilməz" deyən dövlət başçısı Azərbaycanda siyasi sabitliyi pozmaq istəyən qüvvələrə sərt mesajlar göndərdi

**İyulun 13-də prezidenti İlham Əliyevin yanında respublikanın hüquq-mühafizə orqanları rəhbərlərinin iştirakı ilə iclas keçirilib. Dövlət başçısı həm Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyevin vurulmasına və iyulun 10-da bir qrup terrorçunun iki polis zabitini qətlə yetirməsinə sərt mövqeyini ortaya qoyub.**

"İyulun 3-də və 10-da Gəncə şəhərində baş verən qanlı cinayətlər dövlətçiliyimizə qarşı törədilmiş cinayətlərdir" deyən dövlət başçısı terrorçu qruplaşmaların Azərbaycanda sabitliyi pozmaq istədiyini vurğulayıb. İlham Əliyev deyib ki, bu terror aktlarının əsas məqsədi cəmiyyətdə gərginlik yaratmaq və cəmiyyətimizi qorxutmaqdır. Dövlət başçısı bu terror aktlarının dini şüarlar altında pərdələndiyini xatırladaraq, "Bu, özlüyündə İslam dininə qarşı ən böyük cinayətdir. Çünki İslam sülh, mərhəmət dinidir. Azərbaycan dövləti və Azərbaycan xalqı öz milli, dini dəyərlərini daim qoruyur" deyib.

**Prezident Azərbaycanın İslam mədəniyyətini dünyada ən çox təbliğ edən ölkələrdən biri olduğunu, ötən il ölkəmizdə "İslam Həmrəyliyi İli" elan olunduğunu, İslam Həmrəyliyi Oyunları keçirildiyini yada salıb:** "Azərbaycan dövlətinin xətti və dəstəyi ilə dövlət vəsaiti hesabına bizim tarixi-dini abidələrimiz tam bərpa olunub, yenidən qurulub, yeni məscidlər tikilib. Yəni bir daha demək istəyirəm ki, bu cinayəti dinimizə bağlamaq istəyənlər dinimizə qarşı ən böyük cinayət törədiblər". Prezident çıxışını daha sərt mövqe ortaya qoyaraq davam etdirib: "Bu cinayətkarlar müsəlman deyillər..."

**İ.Əliyev Azərbaycana qarşı terror planlarının arxasında dayananların heç vaxt öz məkrli planlarına çata bilməyəcəyini söyləyib:** "Azərbaycan dövləti və Azərbaycan xalqı buna heç vaxt imkan verməyəcək".

**Dövlətimizin başçısı bu qanlı cinayətlərin xalq tərəfindən birmənalı pisləndiyini və bu cinayətləri törədənlərə qarşı nifrətin olduğunu yada salıb.** "Bizim siyasi iradəmizə heç bir qüvvə təsir edə bilməz. Bizi tutduğumuz yoldan heç kim döndərə bilməz. Azərbaycanın müasir tarixi mənim dediklərimi dəfələrlə sübut edib. Kim ki, bizə qarşı çirkin niyyətlərlə hərəkət edib, özü bu hərəkətlərin qurbanı olub. Əvvəllər də belə olub, bu gün də belədir, bundan sonra da belə olacaq" deyə, dövlət başçısı bildirib.

**Prezident yada salıb ki, müstəqillik tariximizdə ölkəmizə qarşı silahlı təxribatlar, terror aktları, dövlət çevrilişlərinə cəhdlər olub:** "Onların biri də baş tutmadı. Bunun başlıca səbəbi ondan ibarətdir ki, Azərbaycanda xalq-iqtidar birliyi var. Mən dəfələrlə bu barədə öz fikirlərimi bildirmişdim, bir daha demək istəyirəm, xalq-iqtidar birliyi sabitliyimizin əsas şərtidir. Xalq-iqtidar birliyini heç bir qüvvə - nə xarici, nə daxili qüvvə sarsıda bilməz".

**"Azərbaycanda təhlükəsizlik ən yüksək səviyyədə təmin edilir" deyən prezident dünya miqyasında Azərbaycanın ən təhlükəsiz ölkələrdən biri olduğunu xatırladıb,** "Azərbaycan xalqının rahat yaşaması üçün biz əlimizdən gələni edirik. Azərbaycan dövləti isə öz üzərinə düşən bütün vəzifələri şərəflə yerinə yetirir. Cinayətkar dəstə zərərsizləşdirilib, əməliyyat-axtarış işləri davam etdirilir. Bu cinayətlərdə əli olan bütün cinayətkarlar məsuliyyətə cəlb olunacaqlar".

**Azərbaycanın dünya miqyasında sürətlə inkişaf edən müasir dövlət olduğunu qeyd edən İ.Əliyev "ona görə, əlbəttə ki, bizim uğurlarımıza kölgə salmaq, siyasətimizə təsir etmək istəyən qüvvələr müxtəlif üsullardan istifadə edirlər" deyib. Prezident bu qüvvələrin əməllərini belə sıralayıb:** "Bizə qarşı çirkin kampaniyalar aparılır, qarayaxma, şər-böhtan kampaniyaları. Yalan, iftira üzərində qurulmuş bu kampaniyaların heç bir səmərəsi olmur. Bizə qarşı müxtəlif xarici mərkəzlərdən idarə olunan media qaralama kampaniyası aparılır. Bunun da heç bir səmərəsi olmur. Özünü hüquq müdafiəçisi adlandıran bir neçə qeyri-hökumət təşkilatı Azərbaycana qarşı gecə-gündüz şər-böhtan kampaniyası aparır. Bunun da nə ölkə daxilində, nə də ki, xaricdə heç bir təsiri olmadı".

**Dövlət başçısı söyləyib ki, Azərbaycan xalqı bu yalanlara, bu böhtanlara inanmır:** "Azərbaycan xalqı öz rəhbərliyinə inanır. Bu il keçirilmiş prezident seçkiləri bunu bir daha bütün dünyaya əyani şəkildə sübut etdi. Yəni, bu cəhdlər əbəsdir. Bizim siyasətimizə, bizim iradəmizə şər qüvvələr heç cür təsir edə bilmir. Onların son addımları göstərir ki, terrordan başqa əllərində bir şey qalmayıb. Bu da keçməyəcək, necə ki, əvvəlki illərdə keçməyib. Azərbaycan dövləti bu dəfə də öz gücünü göstərib və göstərəcəkdir. Bütün cinayətkarlar məsuliyyətə cəlb olunacaqlar, məhkəmə qarşısında, ədalət qarşısında, xalq qarşısında cavab verəcəklər. Bunu təmin etmək üçün bizim kifayət qədər gücümüz, imkanlarımız var".

**Dövlət başçısı sonda cinayətkarların bir hissəsinin həbs edildiyini açıqlayıb:** "Operativ əməliyyat-axtarış tədbirləri davam etdiriləcək. Tam əminliklə deyə bilərəm ki, heç kim məsuliyyətdən boyun qaçıra bilməyəcək. Azərbaycan xalqı isə tam əmin ola bilər ki, Azərbaycan bundan sonra da inkişaf, tərəqqi yolu ilə gedəcək. Biz bundan sonra da öz siyasətimizi aparacağıq, Azərbaycan xalqının xoşbəxt gələcəyini təmin edəcəyik".

***

Prezidentin çıxışında öncəliklə diqqəti çəkən əsas məqam budur ki, dövlət başçısı baş vermiş hadisələrin "din adı altında" pərdələnməsi versiyasını qətiyyətlə rədd edir, bu hadisəni məhz dövlətə və dövlətçiliyə qarşı xaricdə hazırlanmış məkrli plan, birmənalı terror kimi qiymətləndirir.

Dövlət başçısı çıxışının məhz sonrakı hissəsində Azərbaycanın İslam mədəniyyətinə verdiyi töhfələri, xalqını dini-mənəvi dəyərlərinə daima yüksək dəyər verildiyini, məscidlərin bərpasının və tikilməsini yada salaraq baş verənlərin dinlə heç bir əlaqəsi olmadığını bir daha bəyan edib. "Bəs bu planların arxasında duranlar kimdir və hansı qüvvələrdir" kimi suallara prezidentin çıxışında cavab tapmaq mümkündür: "Azərbaycanın inkişafını istəməyən xarici mərkəzlər..."

Dövlət başçısının çıxışında diqqətçəkən daha bir mühüm məqam Azərbaycanın inkişafı kontekstində vurğuladığı "bizim siyasi iradəmizə heç bir qüvvə təsir edə bilməz", "tutduğumuz yoldan bizi heç kim döndərə bilməz" kimi qətiyyətli mövqeyidir. Bu, siyasi təhlilçilər üçün açar ifadələrdir və iyunun 3-də və 10-da baş verənləri ən müxtəlif tərəflərə yozanlara, terrorçuları ən müxtəlif qüvvələrə bağlayanlara "yol xəritəsidir".

Prezidentin çıxışında xüsusi qeyd edilməsi daha bir məqam da bu terror qruplaşmasının əməlinin hədəfində böyük mənada Azərbaycanın müstəqilliyinin olması barədədir. "Onların son addımları göstərir ki, terrordan başqa əllərində bir şey qalmayıb. Bu da keçməyəcək, necə ki, əvvəlki illərdə keçməyib. Azərbaycan dövləti bu dəfə də öz gücünü göstərib və göstərəcəkdir" deyə, prezident bildirib.

**Nəhayət, ən mühüm məqam dövlət başçısının ölkəmizin təhlükəsizliyi ilə bağlı söylədikləridir. Prezidentin çıxışının əsas ana xəttində məhz xalqın və dövlətin təhlükəsizliyi məsələsidir.**

"Azərbaycanda təhlükəsizlik ən yüksək səviyyədə təmin edilir. Dünya miqyasında Azərbaycan ən təhlükəsiz ölkələrdən biridir. Azərbaycan xalqı sülh, əmin-amanlıq, təhlükəsizlik şəraitində yaşayıb yaradır, qurur. Azərbaycan xalqının rahat yaşaması üçün biz əlimizdən gələni edirik" deyən prezident çıxışının sonunda bir daha bu məsələyə qayıdıb: "Azərbaycan xalqı tam əmin ola bilər ki, Azərbaycan bundan sonra da inkişaf, tərəqqi yolu ilə gedəcək. Biz bundan sonra da öz siyasətimizi aparacağıq, Azərbaycan xalqının xoşbəxt gələcəyini təmin edəcəyik".

❑ **"Yeni Müsavat"**

# Çap mediasının yay qayğıları: dövriyyə azaldılır

## Yay mövsümü, qəzet kağızının bahalaşması gündəlik nəşrləri buna məcbur edir

**Son bir neçə ildə çap mediasında çətinliklər yaşanmaqdadır. Satış və reklam gəlirlərinin azlığından gileylənən nəşrlərin durumu qəzet kağızı bahalaşandan sonra daha da qəlizləşib. Yay mövsümü, məzuniyyət başlayandan isə qəzetlərin əksəriyyəti öz dövriyyəsini və yaxud qəzet səhifələrini azaldaraq durumu kompensasiya etməyə çalışır. O sırada "Yeni Müsavat" qəzeti iyulun 15-dən dövriyyəsini azaldacaq və 5 günlüyə keçəcək.**

Bu haqda danışan qəzetin direktoru **Ələsgər Süleymanov** dedi ki, yay mövsümünü, şəhərdə insanların azlığını, məzuniyyətləri nəzərə alaraq, bu addım atılıb: "Ötən il də bu cür addım atmışdıq, belə ki, həftədə 6 dəfə qəzetimiz çıxırdısa, iyulun 15-dən sentyabrın 15-dək qəzetimiz həftədə 5 dəfə işıq üzü görəcək. Yəni həftənin birinci gün buraxılışımız müvəqqəti olaraq dayandırılır. Bu hal Azərbaycan mətbuatında artıq adi hala çevrilib, başqa qəzetlər də ya səhifələrinin, ya da dövriyyələrinin sayını azaldır".

**Ələsgər Süleymanov son vaxtlarda çap mediasında durumun ağır olduğunu vurğuladı:** "Səbəb də odur ki, qəzet kağızının qiyməti durmadan artır. Belə ki, son iki ayda qəzet kağızının hər tonunun qiyməti 300 dollardan artıqdır. Bunun da obyektiv və subyektiv səbəbləri var. Əsas səbəb Rusiyada istehsalçı zavodların özlərində qiymətin artmasıdırsa, digər səbəb bu artımdan sonra qəzet kağızı biznesinin maraqsız və tirajının aşağı olması, beləliklə, istehlakın azalması, iş adamlarına qəzet kağızını gətirməyin sərf etməməsidir. Bu səbəbdən qıtlıq yaranır və qiymətlər qalxır. Bir məsələ də var ki, qəzet kağızının ölkəyə gətirilməsi o qədər də rentabelli biznes sayılmır. Məsələn, onu ölkəyə gətirmək və ölkədə realizə olması prosesi iki aya başa gəlir. Bu müddətdə kağızı gətirən şəxs onun hər tonundan 50-100 dollar qazanc əldə etmiş olur. Bunun müqabilində təxminən kağızın hər tonuna 600-800 dollar sərmayə qoyur. Sonda isə 50-100 dollar qazanc əldə etmək heç kəsə sərf etmir. Bunun üçün də bu biznes zəifləyir, qıtlıq yaranır. Fürsətçillər də bundan istifadə edib bəzən qiymətləri süni şəkildə artırırlar. Həmçinin satışın zəifləməsi, əsasən onlayn mediaya, internetə maraq artması bu problemi yaratmış olur".

**"525-ci" qəzetinin baş redaktoru Rəşad Məcid isə bildirdi ki, təmsil etdiyi qəzetin səhifələri azaldılacaq:** "Düşünürük ki, dövriyyəni azaldaq. Əvvəllər də belə bir təcrübə olub, qəzetin səhifələrini azaltmışıq. Düşünürük ki, avqust ayında qəzetimiz həftədə 3 dəfə işıq üzü görəcək".

**"Bizim yol" qəzetinin kommersiya direktoru Vüsal Yusifov da yaxın günlərdə qəzetin dövriyyəsinin azaldılacağını dedi:** "Növbəti aydan dövriyyəni azaltmağı düşünürük. Yəni qəzetimiz avqust ayından 16 səhifə olmaqla həftədə 3 dəfə işıq üzü görəcək. Qəzetin dövriyyəsinin azaldılması ilk dəfə olacaq. Sentyabr ayından qəzetimiz yenidən 16 səhifə olmaqla həftədə 5 dəfə işıq üzü görəcək. Buna səbəb yay mövsümü, oxucuların sayının azalmasıdır. Hazırda qəzetimizin tirajı öz yerində qalır, yeni həftədə 5 dəfə tirajlanır. Çox yaxşı olardı ki, qəzet kağızının qiyməti aşağı düşsün. Lakin bildirilir ki, qarşıdakı aylarda qəzet kağızının qiyməti bahalaşacaq, bu, vəziyyəti daha da ağırlaşdıracaq".

❑ **Xalidə GƏRAY, "Yeni Müsavat"**

YENİ MÜSAVAT

BİZİM YOL

ictimai-siyasi, sosial-iqtisadi onlayn qəzet

bizimyol.info

YENİ MÜSAVAT
N 151 (7040) 14 iyul 2018

**Almaniya məhkəməsi dövlət vəsaitinin talan edilməsinə görə İspaniyanın Kataloniya hökumətinin keçmiş başçısı Karles Puçdemonu İspaniyaya təhvil verməyi qərara alıb. Almaniya məhkəməsi ekstradisiya üçün qiyama təhrik etməklə bağlı ittihamı əsas tutub.**

# Puçdemon İspaniyaya verildi: bəs Bako Saakyan?

## Politoloq: "Azərbaycan Avropada etnik məsələ ilə bağlı meydana gələn vəziyyətdən istifadə etməlidir"


Karles Puçdemon


Bako Saakyan

Məsələ burasındadır ki, illərdir erməni separatçılarının başında dayanan Bako Saakyan ABŞ-a və digər ölkələrə səfərlər edir. Qərb ölkələri digər separatçılara qarşı sərt mövqe ortaya qoysalar da, Bako Saakyanla bağlı bunu müşahidə etmirik.

"Yeni Müsavat"a danışan **politoloq Qabil Hüseynli** Qərb dünyasında, eləcə də Avropa İttifaqına daxil olan ölkələr arasında fərqli dəyərlərin mövcud olduğunu söylədi: "Azərbaycanın ərazi bütövlüyünün tanınması, Azərbaycanla NATO arasında sürətlə inkişaf edən ikili əlaqələr və onlar tərəfindən ölkəmizin ərazi bütövlüyü ilə bağlı verilən bəyanatlar ümidləri artırır. Düşünürdük ki, Qərb dünyası tədricən ikili standartlardan qurtulur və beynəlxalq hüququn normalarına keçir. Bütün bunlar Dağlıq Qarabağ problemi ilə bağlı artıq beynəlxalq hüquq normalarının işləyəcəyinə də ümidləri artırıb. Hələ ki belə görünür. Xüsusilə də postsovet məkanına münasibətdə bu fərqli dəyərlər yenidən "ikili standartlar" şəklində təzahür etməyə başlayıb. Puçdemon Kataloniya basqılarının ekstremist lideridir. O, İspaniyada davakar bir ayrılıqçılığın bünövrəsini qoyub və sonradan bütün Avropa ölkələri bu məsələdə prinsipiallıq göstərdiyindən İspaniya, Kataloniya lideri başda olmaqla, oradakı separatçılara çox ciddi təzyiqlər göstərib. Ordunun gücündən də istifadə edərək, separatçıları həbs edib, onların bir qismi isə ölkəni tərk etməyə məcbur olub. Həmin zaman Avropa İttifaqı qəti şəkildə bildirdi ki, aqressiv separatizmə qarşı barışmaz münasibət bəsləyəcək və dövlətlərin ərazi bütövlüyü məsələsindən geri çəkilməyəcək. Bunu Azərbaycanın ərazi bütövlüyünü tanımaq məsələsində büruzə verirlər. Ancaq ayrı-ayrı məsələlərdə, xüsusilə Dağlıq Qarabağ probleminin həllində ardıcıl prinsipiallıq göstərmirlər. Hələ Puçdemonun İspaniyaya verilməsini ona münasibətin dəyişməsi kimi qiymətləndirmək istəmirəm. Onsuz da onun haqqında İspaniya məhkəmə orqanları bir neçə maddə ilə cinayət işi qaldırıb. O, çətin ki, İspaniya məhkəməsinin caynağından qurtara bilsin. Bu məsələ də var ki, belə prinsipiallıq Dağlıq Qarabağ separatçılarına münasibətdə özünü göstərmir. Hələ ki Dağlıq Qarabağ separatçılarına münasibətdə ikili standartların qalması davam edir".

**Politoloq deyir ki, Qarabağ separatçılarının başçısının bundan sonra müxtəlif ölkələrə səfərlərinə Azərbaycan hökumətinin cidd-cəhdləri nəticəsində qadağa qoyulacaq:** "O, azad surətdə Avropa ölkələrini, Amerikanı gəzib-dolaşmaqda indi malik olduğu sərbəstliyə sahib olmayacaq. Çünki Avropa və Qərb dünyasının aqressiv separatizmə qarşı münasibəti ortadadır və Azərbaycana münasibətdə ən azından bəyanat formasında öz ifadəsini tapıb. Hesab edirəm ki, işin ağırlığı yenə də öz üzərimizə düşür. Biz bu məsələni Puçdemonun timsalında populyarlaşdırmağa və ictimai fikrin mərkəzinə gətirməyə çalışmalıyıq. Çalışmaqdan çox, buna nail olmalıyıq. Çünki Avropa Birliyi etnik münaqişələrin həlli məsələsində prinsipial mövqe ortaya qoyub. Məsələ onun praktiki surətdə həyata keçirilməsinin bəzi nüanslarını anlatmaqdır. Bu nüansları da anlatmaq, zənnimcə, bizim dövlət orqanlarının üzərinə düşür. Əminəm ki, Puçdemonun və onun Kataloniyadakı separatçı tərəfdarlarının qələbə çalması və ya İspaniyanı bölmək arzuları xəyal olaraq qalacaq. Bunun gerçəkləşməməsi dünyada heç bir presedent yaratmayacaq. Biz də bunu ona görə istəmirik ki, bu, dünyadakı etnik ayrılıqçı hərəkətləri körükləyir. Bu baxımdan düşünürəm ki, biz son iki-üç ay ərzində Avropanın etnik separatizmə qarşı münasibətində əmələ gələn kəskinliyin praktikaya çevrilməsi istiqamətində ciddi səy göstərməliyik. Bu səylər nəticəsində Dağlıq Qarabağ separatçılarının başçısı ilə bağlı xüsusi qərarların çıxarılmasına nail olmalıyıq. Onsuz da bu gün hüquqi müstəvidə Azərbaycanın əli möhkəmdir. Beynəlxalq təşkilatların əksəriyyətinin verdiyi bəyanatların əksəriyyəti bizim tərəfimizdədir. Son zamanlar Avropa fikrində meydana gələn ciddi dəyişikliklər də bizim yanımızdadır. Bütün bunlardan istifadə edib, məsələnin praktik həllinə çalışmalıyıq".

**❑ Əli RAİS,**
**"Yeni Müsavat"**

# Deputatdan Bakı-Ankara əməkdaşlığı ilə bağlı təklif

## Qüdrət Həsənquliyev: "Əgər qarşılıqlı hərbi yardım haqqında saziş imzalaya bilmiriksə, hansı konfederasiyadan söhbət gedə bilər?"



**"Türkiyə ilə Azərbaycanın konfederativ əsaslarla birləşməsini mümkün saymıram. Vaxtilə Fazil bəy (Mustafa - red.) də bir fikir işlətmişdi ki, qeyri-ciddi adamlar hansısa bir ciddi məsələ haqqında danışanda hətta həmin məsələyə də insanlar qeyri-ciddi yanaşır".**

Milli Məclisin deputatı, **BAXCP sədri Qüdrət Həsənquliyev** bu fikirləri Türkiyə və Azərbaycanın konfederativ dövlətdə birləşməsi barədə təkliflər haqda "Yeni Müsavat"a danışarkən dedi. Partiya sədri xatırlatdı ki, vaxtilə özü də konkret ideya ilə çıxış etdi: "Sözün düzü, mən özüm vaxtilə nəzəri baxımdan belə bir məsələni gündəmə gətirmişdim. Amma demişdim ki, gələcəkdə reallaşa bilər. Təbii ki, söhbət yaxın gələcəkdən getmirdi. Demişdim ki, hətta Türk-Slavyan Respublikaları İttifaqı formalaşa bilər. Yeni Avropa Birliyi modelində belə bir ittifaqın yaradılmasını mümkün saymışdım. Belə bir təşəbbüslə çıxış etmişdim ki, vaxtilə SSRİ var idi, indi də Türk - Slavyan Respublikaları İttifaqı ola bilər. O zaman hələ Ukrayna və Rusiya indiki kimi müharibə vəziyyətində deyildi. Nəzərdə tutmuşdum ki, 3 slavyan respublikası və üstəgəl, Türkiyə də daxil olmaqla, Azərbaycan və Orta Asiyadakı türk respublikaları. Yeni yeni ittifaqın da adı Türk-Slavyan Respublikaları İttifaqı olsun. Əsaslandırmışdım ki, Türkiyənin əhalisinin sayı çox olduğuna görə Avropa İttifaqına buraxmayacaqlar. Faktiki olaraq, Avropa İttifaqı bir xristian klubudur. Ona görə də belə bir ittifaq yaradıla bilər. Nəzəri baxımdan bir fikir səsləndirmişdim. Amma o zaman da demişdim ki, bunu hətta mən özüm səsləndirsəm də, indiki dövrdə qeyri-realdır".

**Q.Həsənquliyev iki qardaş ölkənin konfederasiya halında birləşməsini real saymır:** "İndiki dövrdə hələ konfederasiyanı kənara qoyuruq, əgər Türkiyə-Azərbaycan ittifaqının yaranması qeyri-mümkündürsə, bu illər ərzində qardaşlığımız haqqında sayı-hesabı olmayan bəyanatlar vermiş olsaq da, iki respublika olaraq qarşılıqlı hərbi yardım haqqında saziş imzalaya bilmiriksə, Belarus və Rusiya kimi bir ittifaq dövləti yarada bilmiriksə, hansı konfederasiyadan söhbət gedə bilər? Özü də bu, axı tək bizim istəyimizdən asılı olan məsələ deyil. Bunun üçün gərək qarşı tərəfin - Türkiyənin də istəyi olsun. İkincisi də dünyanın reallıqları ondan ibarətdir ki, hər iki dövlətin xarici siyasətini müəyyənləşdirən faktorlar mövcuddur. Azərbaycan MDB-nin, Türkiyə isə NATO-nun üzvüdür. Bu baxımdan region dövlətləri belə bir sazişin imzalanmasına imkan verəcəklərmi? Bilirsinizmi, mütləq müstəqillik deyilən bir şey yoxdur. Ona görə də dünyanın siyasətini müəyyənləşdirən böyük dövlətlər buna "hə" deyəcəkmi? Bunlar hamısı çox ciddi məsələlərdir. Ona görə də real olan məsələlərdən danışmaq, o istiqamətdə təkliflər vermək daha məqbuldur".

**"Bəs hazırda real olan nədir", sualına BAXCP sədrinin cavabı aşağıdakı kimi oldu:** "Tutaq ki, Türkiyə Avrasiya İttifaqına girir, Azərbaycan da bu quruma üzv olur. O halda Avrasiya İttifaqı Türk-Slavyan Respublikaları İttifaqı modelini alır. Türkiyə burada olacağı təqdirdə artıq dünya birliyi Avrasiya İttifaqını da rusiyayönümlü bir təşkilat kimi qiymətləndirməyəcək. Həm də orada olan digər respublikalar, tutaq ki, Türkmənistan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan özünü daha rahat və azad hiss edəcək. Türkmənistanı, Qırğızıstanı, Özbəkistanı da bu quruma cəlb etmək olar. Bu baxımdan hesab edirəm ki, daha real təkliflərlə çıxış etmək lazımdır. Hətta Türkiyənin Avrasiya İttifaqına girməsi belə, son dərəcə problematik məsələ kimi görsənir. Ona görə ki, ABŞ və Avropa Birliyi buna imkan verəcəkmi? Bu məsələnin özü belə şübhə doğurur, o ki qaldı Azərbaycan və Türkiyənin konfederativ dövlət qurmasına razılıq verilsin".

**Türkiyənin Azərbaycan ərazilərinin azad olunmasında, Suriya və İraqdan sıxışdırıldığı üçün Qarabağa sığınan PKK-ya, həmçinin erməni terrorçularına qarşı birgə əməliyyatı, Naxçıvanı müdafiə istiqamətində hərəkətə keçməsi mümkündürmü?**

**Q.Həsənquliyev bunu da mümkün saymır:** "Birmənalı şəkildə qeyri-realdır. Ona görə ki, Ermənistan Rusiyanın himayəsi altında olan dövlətdir, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvüdür. Bu təşkilatda da söz sahibi Rusiyadır. Ona görə də Rusiya buna imkan verməz. Bu səbəbdən mən həmişə deyirəm ki, Türkiyə nüvə dövləti olmayana qədər regionda, bizim yerləşdiyimiz coğrafiyada söz sahibi Rusiya olaraq qalacaq. Ona görə də mən İranın nüvə silahı əldə etməsinə çox normal yanaşıram, bunu əvvəllər də bəyan etmişəm. Düşünürəm ki, İran nüvə silahı əldə edəndən sonra dərhal Türkiyə də bu silaha sahib olacaq. Beləliklə, bölgədə Rusiyanın hegemonluğuna son qoyulacaq. Nə qədər ki, Türkiyə nüvə dövləti deyil, Rusiya ilə Türkiyənin üz-üzə dayanması qeyri-realdır".

**❑ E.PAŞASOY,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 151 (7040) 14 iyul 2018

**Gəncədə baş verən silsilə terror aktları prezident İlham Əliyevin yanında respublikanın hüquq-mühafizə orqanları rəhbərlərinin iştirakı ilə iclasda müzakirə olunub. İlham Əliyev respublikanın hüquq-mühafizə orqanları rəhbərlərinin iştirakı ilə keçirilən iclasda bəyan edib ki, Gəncədəki hadisələrin arxasında xarici güclər durur.**



# 10 iyul Gəncə terroru: Moskvadan gələnlər, İran izi və erməni kəşfiyyatı

## Terrora çağırış edənlər həbs olunur, beynəlxalq axtarışa verilənlər var; Bəhram uzun illər Rusiyada yaşadı, 1 gün əvvəl Gəncəyə gəldi, iğtişaşa qatıldı; **jurnalist:** “Qətlindən bir az əvvəl İlqar Balakişiyevlə söhbət etmişdim...”

Hazırda Gəncədəki qanlı olaylarla bağlı istintaq hər gün “qazıntı” işlərini davam etdirir. Baş prokurorun 1-ci müavini Rüstəm Usubov gerçəkləşdirilən əməliyyat-istintaq tədbirlərinə nəzarət etmək üçün Gəncəyə ezam olunub.

İstintaq araşdırmaları zamanı ortaya olduqca ilginc və vahiməli məlumatlar çıxmaqdadır. “Yeni Müsavat” qəzetinin Gəncə olaylarının xaricdən idarə olunması ilə bağlı irəli sürdüyü versiyalar rəsmi olaraq da təsdiqlənir. Prezident Gəncədəki hadisələrlə bağlı çıxışında da bunu dedi. İlham Əliyev bildirdi ki, bu terror aktlarının dini şüarlar altında törədilməsi özlüyündə İslam dininə qarşı ən böyük cinayətdir. Çünki İslam sülh, mərhəmət dinidir.

**Prezident deyib:** “... Bu cinayəti dinimizə bağlamaq istəyənlər dinimizə qarşı ən böyük cinayət törədiblər”.

### 21 cinayət işi başlanıb, 3 nəfər həbs olunub

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyevin həyatına sui-qəsddən sonra terrorçuluğa açıq çağırış etmiş şəxslər barədə 21 cinayət işi başlanıb və 3 nəfər həbs edilib. Digər şəxslərin müəyyən edilməsi üçün əməliyyat-axtarış tədbirləri davam etdirilir. Terrorçuluğa açıq çağırışlar etmiş və Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşayan şəxslər beynəlxalq axtarışa verilib. Qanunsuz hərəkətlərə çağırış etmiş 25 şəxs barəsində inzibati həbs tədbiri seçilib.

Xatırladaq, iyulun 3-də saat 20:30-da Gəncə Şəhər İcra Hakimiyyətinin inzibati binasının qarşısında icra başçısı Elmar Vəliyevə silahlı hücum edilib. Cinayəti törətmiş 1983-cü il təvəllüdlü Yunis Səfərov dərhal saxlanılıb və hadisə yerində olan polis əməkdaşları tərəfindən tərk-silah edilib. 10 iyulda isə Gəncədə 150-200 nəfərdən ibarət olan qrup tərəfindən təşkil edilmiş qarışıqlıq zamanı iki polis zabiti - Gəncə Baş Polis İdarəsinin rəis müavini, polkovnik İlqar Balakişiyev və Gəncənin Nizami Rayon Polis İdarəsinin rəis müavini, polkovnik-leytenant Səməd Abbasov öldürülüblər. Sonrakı günlərdə aparılan operativ-istintaq tədbirləri ilə bu cinayətləri törədənlərdən biri - Fərrux Qasımov həbs olunub. Polis əməkdaşlarını qətlə yetirməkdə şübhəli bilinən digər şəxs - Rəşad Böyükkişiyevin gizləndiyi yer də müəyyən olunub. Onun tutulması üçün iyulun 13-ü səhər saatlarında əməliyyat keçirilib.

### Polis zabitini şəhid edən xüsusi əməliyyat zamanı öldürüldü

**Baş Prokurorluq, Daxili İşlər Nazirliyi (DİN) və Dövlət Təhlükəsizliyi Xidməti (DTX) Gəncədə polis əməkdaşlarını qətlə yetirməkdə şübhəli bilinən Rəşad Böyükkişiyevin zərərsizləşdirilməsi ilə bağlı rəsmi məlumat yayıb. Musavat.com-un yaydığı məlumatda bildiririlir ki, törədilmiş qanlı cinayətin bütün iştirakçılarının müəyyən edilib məsuliyyətə cəlb olunmaları məqsədilə zəruri istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri davam etdirilir:** “Cinayətin iştirakçılarının müəyyən edilərək tutulması istiqamətində dövlət başçısının şəxsi nəzarəti altında intensiv surətdə davam etdirilən əməliyyat-axtarış tədbirləri nəticəsində polis əməkdaşlarını qətlə yetirməkdə şübhəli bilinən Rəşad Böyükkişiyevin Şəmkir rayonunun Moranlı kəndindəki gizləndiyi yer müəyyən edilib və tutulması üçün iyulun 13-ü səhər saatlarında keçirilən əməliyyat zamanı silahlı müqavimət göstərdiyindən o, yerində məhv edilib. Amma əməliyyat zamanı silahlı müqavimət göstərdiyindən o, yerində məhv edilib”.

“Yeni Müsavat”a daxil olan məlumatda deyilir ki, istintaqçılar müəyyən ediblər ki, Rəşad Böyükkişiyev hadisədən əvvəl ailəsini ölkədən çıxarıb. Hazırda Böyükkişiyevin ailəsinin Gürcüstanda olması haqda məlumatlar var.

Gəncə olaylarına görə həbs olunanların sırasında Rusiyadan gələn şəxslərin olması haqda da məlumatlar təsdiqlənir. Tutulanlardan biri Bəhram Əliyevdir. Uzun illər Rusiyada yaşayan bu şəxs hadisədən 1 gün əvvəl Gəncəyə gəlib və icra hakimiyyəti binası qarşısındakı meydanda aksiyaya qatılıb.

İşdə Rusiya və İran izinin olması haqda məlumatlar da az deyil. Elmar Vəliyevə atəş açan Yunis Səfərovun uzun illər Rusiyada yaşaması, Rusiya vətəndaşı olması, anası Leyla Səfərovanın Rusiya Federal Təhlükəsizlik Xidmətinin (FTX) Akademiyasında kitabxanaçı olması, polis zabitlərinə xəncərlə xəsarət yetirmiş Rəşad Böyükkişiyevin də olaylardan əvvəl Rusiyadan gəlməsi artıq məlumdur. Yunis Səfərov Elmar Vəliyevə qarşı cinayət törədəndən sonra onun ortaya çıxan bir fotosunda maraqlı mesaj yer alırdı. Həmin fotoda Yunis Səfərov papaqlı əks olunub. Onun başındakı papaq 2008-ci ildə Suriya ərazisində sui-qəsd nəticəsində öldürülmüş, “Hizbullah” hörgütünün silahlı qanadının əfsanəvi komandanı İmad Muğniyənin mediaya sızan nadir fotolarından birində başına qoyduğu papaqla eynidir. Bu papaq hizbullahçıların səhra geyimidir və Yunisin bu papaqla fotosu məhz onun bu qrupda olduğunu göstərməyə xidmət edib. “Hizbullah”ı İranın maddi və hərbi baxımdan dəstəklədiyi də hər kəsə bəllidir. Bundan başqa, Yunis Səfərovun xanımının ilk səs yazısı və sonradan video müraciəti də Rusiya ərazisində qeydiyyatda olan “Ar Rad” kanalı üzərindən gerçəkləşdirilib, bu gün də Rusiya ərazisində fəaliyyətdə olan “Səma HD” kanalı üzərindən Yunis Səfərovun qəhrəmanlaşdırılmasına xidmət edən materiallar, məlumatlar paylaşılır.

Daha bir diqqətçəkən məqam odur ki, Gəncədə 1 həftə fərqlə törədilən qanlı terror aktlarını Türkiyə və İsrailin ölkəmizdəki səfirlikləri pisləyən açıqlamalar versələr də, ölkəmizdəki Rusiya və İran səfirlikləri susqunluq nümayiş etdirirlər. Azərbaycanın 2-ci ən böyük şəhərində baş verən olayda bu ölkələrin adları hallansa da, münasibət bildirməyə həvəs göstərmirlər.

Bir daha qeyd edək ki, musavat.com-a istintaqdakı mənbələrdən çatan məlumata görə, istintaq-axtarış əməliyyatı zamanı müəyyən olunub ki, hadisədən bir gün əvvəl Rəşad Böyükkişiyev bütün ailə üzvlərini və yaxınlarını Gürcüstana çıxarıb. Həmçinin cinayət törətməkdə şübhəli bilinən Bəhram Əliyev isə iyulun 9-da Rusiyadan Gəncəyə gəlib. Bu faktlar təsdiq edir ki, cinayət qabaqcadan planlaşdırılmış aksiya olub və bilavasitə xaricdən idarə edilib. Əldə edilən bəzi faktlar cinayət iştirakçılarının bir qisminin həm də Ermənistan xüsusi xidmət orqanları ilə əməkdaşlıq edən dini-ekstremist təşkilatla sıx bağlı olduğunu deməyə ciddi əsaslar yaradıb. Vəhabilərin də baş vermiş olaylarda iştirakı ehtimalı haqda ötən sayımızda məlumat vermişdik.

### “Bu hadisənin işartısı da yox idi”

Bu arada Gəncədəki 10 iyul hadisələrini işıqlandıran, əslən Gəncədən olan telejurnalist, Real TV-nin əməkdaşı Mahir Məmmədli hadisələrlə bağlı maraqlı detallar açıqlayıb.

**Deyib ki, hadisələrlə bağlı Gəncəyə gedib, Elmar Vəliyevin daha öncə icra başçılığı etdiyi Yevlaxda müsahibələr alıb. Jurnalist deyib ki, Gəncəyə çatanda bu hadisənin işartısı da yox idi.**

“İnsanlar mərkəzi meydandakı fəvvarənin yanında gəzirdilər. Həmin vaxt fəvvarənin yanında bir neçə qadın oturmuşdu. Heç kəs də təxmin etmirdi ki, bu qadınlar təxribatın tərkib hissəsi ola bilərlər. Polisə tapşırılmışdı ki, insanlara qarşı qıcıqlandırıcı hərəkətlər etməsinlər, maksimum sakit davransınlar. Ona görə də ərazidəki polislər silahsız idilər. Mülki geyimli və polis geyimində 20-25 nəfər var idi. Həlak olan Səməd Abbasov və İlqar Balakişiyev də onların arasında idi. Mən qətlindən bir az əvvəl İlqar Balakişiyevlə söhbət etmişdim. Mənə əminliklə dedi ki, heç bir aksiya olmayacaq”...

### “10-a yaxın qadın çantasından boşqab çıxarıb, şüarlar qışqıra-qışqıra polislər tərəfə atmağa başladılar”

**Mahir Məmmədli bildirib ki, axşam saat 8-ə qədər hər şey sakit idi. Anons edilən aksiyanın olmayacağını düşünən telejurnalist hətta hadisə yerindən getməyi də düşünüb:** “Amma saat 8-dən 10 dəqiqə keçmiş Fəvvarənin kənarında oturan 10-a yaxın qadın çantasından boşqab çıxarıb, şüarlar qışqıra-qışqıra polislər tərəfə atmağa başladılar. Polisin diqqəti bunlara yönəldi. Bunların da məqsədi elə bu imiş. Bu zaman meydanın 2 ayrı tərəfində Səməd Abbasov və İlqar Balakişiyevə qarşı kəsici alətlə hücum oldu. Polislərə hücum edən şəxslərin kimliyi təhlükəsizlik kamerasına düşüb. Həmin gün 40-a yaxın adam saxlanmışdı. Onların arasında gəncəlilər yoxdur. Əvvəlcədən ayrı-ayrı rayonlardan Gəncəyə gətirilib, ev tutublar. Gəncəyə qrup halında gəlməyə məhdudiyyətlər olub. Ona görə də ayrı-ayrı halda gəliblər. Şəhər ətrafında evlər tutublar. Orada qalıblar. Yerli əhali indi istintaqa deyir ki, həmin evlərdən birinə hər gün 10-15 çörək alıb aparırdılar. Bu da onu deməyə əsas verir ki, onlar bu çörəkləri birgə qaldıqları hücrələrə aparırmış”.

**M.Məmmədli bildirib ki, hadisə günü meydanda olan polislərin əlində dəyənək olmayıb:** “Onlar qrup halında toplaşan insanlara yaxınlaşırdı. Bu hadisədən sonra post patrul xidməti əməkdaşları gəldilər. Əllərində dubinka da, qaz balonu da vardı, amma o vaxta qədər artıq yaralanma hadisəsi olmuşdu”.

### Polislərə ilk hücum edən ələ keçib

Gəncədə asayişin pozulmasının qarşısı alınarkən polis əməkdaşlarına ilk hücum edənlərdən biri - Samir İbrahimovun da gizləndiyi yer müəyyən edilmiş və keçirilmiş əməliyyat tədbirləri ilə yaxalanıb. Bütövlükdə qeyd olunan cinayətin fəal iştirakçılarından 11 nəfərin tutulması təmin olunub, biri isə - Rəşad Böyükkişiyev məhv edilib. Törədilmiş qanlı cinayətin bütün iştirakçılarının müəyyən edilib məsuliyyətə cəlb olunmaları məqsədilə zəruri istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri davam etdirilir".

### Yaralı asayiş keşikçisi: “Gözləməzdik ki, bu şəxslərin üstündən xəncər və digər kəsici alətlər çıxar”

**Gəncə hadisələri zamanı xəsarət alan şəhər baş polis idarəsinin post-patrul taborunun qərargah rəisi Samir Bayramov hadisənin təfərrüatlarını danışıb. Samir Bayramov bildirib ki, hər şey gözlənilmədən baş verib. Gəncə polisinin rəhbər şəxsləri ilk növbədə hücuma məruz qalıblar. Yaralı polisin sözlərinə görə ərazidə dinc əhali, körpə uşaqlar da var idi. Polislər də tapşırığa əsasən vəzifələrini yerinə yetiriblər.** “Gözləməzdik ki, bu şəxslərin üstündən xəncər və digər kəsici alətlər çıxar. Qəflətən kəsici alətlərlə, xəncərlərlə üstümüzə cumdular. Asayişi qorumaq üçün müdaxilə etdik və bu zaman xəsarət aldım” - deyə Samir Bayramov bildirib. Samir Bayramov ictimai asayişi qorumağın daxili işlər orqanlarının hər bir əməkdaşının vəzifə borcu olduğunu söyləyib.

❑ **E.MƏMMƏDƏLİYEV,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 151 (7040) 14 iyul 2018

# Etibar Pirverdiyevin şübhələri - Azərbaycanı qəsdlə vururlar?

## Bakı niyə yenə işıqsız qaldı? Təhlükəsizlik və sahə ekspertlərindən maraqlı rəylər

**İyulun 12-də Azərbaycanın 27 faiz hissəsində yenidən elektrik verilişində fasilə yarandı. Rəsmi məlumata görə, buna səbəb Mingəçevir İES-dən gələn xəttin Yevlax şəhəri və Ağsu rayonu Bico kəndindən keçən hissəsində olan zəmilərdə naməlum yanğın hadisələri olub. Nəticədə təhlükəsizlik məqsədilə respublikanın bəzi bölgələrinin elektrik enerjisi ilə təchizatı dayandırılıb.**

Enerji fasiləsinin yaranması "Bakı Metropoliteni"nin işinə də təsir edib. Qurumun mətbuat xidmətinin rəhbəri Bəxtiyar Məmmədov qeyd edib ki, saat 16:10-dan etibarən Bakı Metropoliteninin Bənövşəyi xəttinin iki stansiyası - "Avtovağzal" və "Memar Əcəmi" stansiyaları işləməyib.

**Məsələ ilə bağlı mətbuata açıqlama verən "Azərenerji"nin rəhbəri Etibar Pirverdiyev hadisənin suallar doğurduğunu deyib:** "Eyni zamanda Yevlaxda və Ağsuda elektrik xətlərinin altında yanğın başlayıb. Bu da çoxsaylı suallar doğurur. Nəyə görə birdən-birə iki yerdə? Biz Bakıya və Sumqayıta elektrik enerjisinin ötürülməsini dayandırmağa məcbur olduq", - deyə Pirverdiyev söyləyib.



**Doğrudanmı burada kənar qüvvələrin təsiri var? "Yeni Müsavat"a danışan təhlükəsizlik üzrə ekspert İlham İsmayıl bildirib ki, hər hansı bir təxribatın olduğunu düşünmür:** "Düşünürəm ki, Azərbaycanda elektrik avadanlıqları çox köhnəlib və buna görə də iş gərginliyinə, havaların isti keçməsinə dözə bilmir. Burada xüsusi təxribat görmürəm. Ən azından təxribat olsaydı, ilk olaraq Dövlət Təhlükəsizlik Xidməti, ardınca digər hüquq-mühafizə orqanları bununla məşğul olmalı idilər - əgər ortada element olardısa. Prezidentin yanında aparılan müşavirədə də məlum oldu ki, avadanlıqlara ayrılan vəsaitlər faktiki olaraq yeyilib. Yararsız hala düşən avadanlıqları da birdən-birə təzələmək olmaz. Elə müşavirədə də deyildi ki, buna zaman lazımdır. Bu zaman tam bitənə qədər düşünürəm ki, biz, elektrik kəsintisi ilə üzləşəcəyik".

**Məsələ ilə bağlı "Yeni Müsavat"a açıqlamasında "Azərenerji"də də bir müddət çalışmış, ekspert Əzim Məsimov isə söylədi ki, ümumilikdə şəbəkədə olan problem aradan qaldırılmalıdır:** "Bizim elə bir sistemimiz var ki, bir stansiyada qəza olduğu zaman ən azından strateji obyektlər işıqsız qalmamalıdır. Xüsusilə söhbət "Bakı Metropoliteni"ndən gedir. O sistem bizdə var ki, bu obyekti daima işıqla təmin edə bilərik. Düşünürəm ki, şəbəkə-mühəndis quruluşları yetərincə deyil. Mingəçevirdəki hadisə ilə bağlı müşavirədə əslində cənab prezident tərəfindən hər şey dəqiqliyi ilə bildirildi. Yəni söylənildi ki, şəbəkədə problemlər var. Hər bir şəbəkədə giriş-çıxış xüsusi avadanlıqlarla bloklanır. Yəni bir sistem bağlanır, digər sistemə heç bir təsir etmir. Bu şəbəkə sistemini doğru qaydada qurmaq lazımdır. Belə olmasa, qəza hadisələri zamanı yenə də eyni vəziyyətə düşəcəyik. Metro stansiyası burada deyərdim ki, əsas faktorlardan biridir. Bizdə birinci, ikinci və digər kateqoriyalı obyektlər var. Metro, təhlükəsizlik orqanları, Prezident Aparatı və digər bu kimi qurumların işıq təminatı bütün kateqoriyalardan yüksəkdə dayanır. Yəni aksiom budur ki, həmin qurumlarda, orqanlarda işıq daima olmalıdır. Əgər bir stansiyaya bağlı olsaydıq, deyərdik ki, şəbəkəni təmin etmək mümkün deyil. Lakin belə deyil axı. Sumqayıtda, şimal regionlarında, Neftayırma Zavodunda 500 min kilovat, Şirvanda 800 min kilovat gücündə stansiyalarımız var. Bu stansiyalar imkan verir ki, Bakı şəhəri stabil enerji ilə təmin olunsun. Bütün ərazilər də olmasa, əsas obyektlər işıqsız qala bilməz. Ancaq şəbəkənin quruluşunda olan texniki nöqsanlar buna imkan vermir. Bir hadisə baş verən kimi sistem dayanır. Metronun özünün generator sistemi olmalıdır ki, bu cür hadisələr zamanı problem yaranmasın. Sistemdə böyük mühəndislik savadsızlığı var. Mütəxəssis çatışmazlığını aradan qaldırmaq lazımdır".

**Ekspertə görə, baş verənlərdən sonra bütün sistem yoxlanmalıdır:** "Çatışmazlıqlar bir-bir aradan qaldırılmalıdır. Xüsusilə də yuxarıda qeyd etdiyim bloklanma sistemi qurulmalıdır. 2002-ci ildə də Ağsudan keçən xətlərdə problem olduğu üçün Bakı işıqsız qalmışdı. Qanunda mühafizə zolağı məsələsi olsa da, xəttin altını bitkidən, əkindən məhrum etmək də çətin məsələdir. Məncə, ağlabatan deyil ki, istilik səbəbindən xətt sıradan çıxa. Çünki yerlə xəttin arasındakı məsafə böyükdür. Bu, meşə yanğını deyil ki, alovun hündürlüyü 10-15 metr qalxsın. Bununla bağlı doğrudan da ciddi araşdırmalar aparılmalıdır. Bəziləri Mingəçevir SES-in yerinə başqa SES-in tikintisi məsələsini qaldırmışdı. Bu, real söhbət deyil. İllərdir ki, Mingəçevir SES yaradılıb və bunun bütün xətləri qurulub, başa çatdırılıb. Orada böyük sistem var və bunu yenidən yaratmaq milyardlarla vəsaitə başa gələr. Mövcudu dağıtmaq yox, bərpa etmək lazımdır. Bunun üçün də ağıllı mütəxəssisləri işə dəvət edib, məsləhətlər almaq gərəkdir".

**❑ Əli RAİS, "Yeni Müsavat"**

---

**Aktiv jurnalistikaya döndüyüm bir neçə aydır. Səkkiz illik fasilədən sonra hər gün yazmaq müsahiblərlə, mənbələrlə aktiv işləmək vərdişlərinin təzələnməsini tələb edir. Bir qədər çətin də olsa, artıq "Yeni Müsavat"ın gərgin rejimində işləmək vərdişimi bərpa etmişəm...**

**Dünya SAKİT**



# Mətbuat xidmətlərinin cavab borcu

Əslində ötən səkkiz ildə jurnalistikadan tam da ayrı düşməmişdim, müəyyən araşdırmalar hazırlayırdım. Bu araşdırmalar üçün müxtəlif qurumların mətbuat xidmətlərinə informasiya sorğuları ilə müraciət edərək cavablar da alırdım. İndikindən fərqli olaraq, zamanım bol olurdu deyə cavablandırmanın nə qədər çəkməsi elə də önəm daşımırdı. Lakin hər gün yazı hazırladığım indiki dönəmdə bu müddət mənim üçün çox əhəmiyyətlidir: əksər hallarda sorğularım gündəm mövzuları üzrə olur. Gündəm mövzularını isə elə gündəmdə olduğu zaman işləmək gərəkir, əks halda, daldan atılan daş kimi hədəfinə çatmayacaq...

Son aylarda xüsusilə dövlət qurumları ilə təmas təcrübəm göstərir ki, hətta ən adi suallara belə sorğu istənilir. Bu, əlbəttə, mənim yazdığım sahədə - sosial-iqtisadi blokdakı dövlət qurumlarına aiddir. Bu qurumlarda kiçik istisnalarla, hansı mətbuat katibinə üz tutursan, "suallarını yaz göndər" deyir. Halbuki "İnformasiya əldə edilmək haqqında" Qanun dövlət qurumlarının sorğuları mütləq və mütləq yazılı şəkildə almasını, yazılı şəkildə cavablandırılmasını tələb etmir. Aydın məsələdir ki, "Suallarını yazılı göndər" şablonu mətbuat katibləri üçün canqurtaran rolunu oynayır. Bunu bilmək elə də çətin olmadığı üçün mən də suallarımı yazıb göndərirəm. Necə deyərlər, bəhanəkəsənlik üçün.

Di gəl ki, yazılı göndərdiyimiz suallara günlərlə cavab ala bilmirik. Sorğu-sualını göndərirsən, telefonla da xahiş-minnət edirsən ki, ay filankəs müəllim, xanım, amanın bir günüdür, gündəm mövzusudur, suallara tez cavab verin. Amma üstündən 2 gün keçir, 3 gün keçir, bir həftə keçir. Və çoxsaylı təkidlərindən sonra elə bir cavab alırsan ki, heyrətlənməyə bilmirsən: ya qoyduğun 4-5 sualdan yalnız biri cavablandırılır, ya da ümumiyyətlə, suallara aidiyyəti olmayan cümlə yığını görürsən.

Qanun tələb edir ki, informasiyanın qaynarlığı nəzərə alınaraq, müxtəlif mövzulara aid suallar tez, özü də sorğunu verən tərəfin istədiyi formada - yazılı, elektron, telefonla və sair cavablandırılsın. Bizim mətbuat katiblərimizin böyük əksəriyyəti isə hesab edir ki, qanundakı yalnız yazılı cavablandırma prinsipidir. Bu yazılı cavablandırma zamanı isə dolğunluq, əhatəlilik prinsipləri qulaqardına vurulur.

**Cənablar, xanımlar!**

Biz sizdən nə borc pul istəyirik, nə şəxsi bilgi. Sırf oturduğunuz kresloya görə sizdən istədiyimiz məlumatları vaxtında və dolğun cavablandırmaq vəzifə borcunuzdur! Bir zəhmət, bu borcu bizə minnət yükləməklə, yaxud başınızdan etməklə yerinə yetirməyin. Necə ki, biz sizinlə davranırıq, eləcə də siz cavab verin. Sizdən bundan artığını istəmirik, istəməyəcəyik də...

---

# Saxta əlillik dərəcəsi alanlara pensiya verilməyəcək

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində əlliliklə bağlı yaradılmış İşçi Qrup tərəfindən aparılan araşdırmaların ilkin nəticələri bəlli olub. Bu ilin birinci rübündə risk qrup xəstəlikləri ilə əlaqədar yanlış əlillik təyinatları barədə qərarlar dərhal ləğv edilməklə, bu şəxslərə yönələn pensiya, müavinət və təqaüd ödənişləri dayandırılıb və onlara ödənilmiş vəsaitin dövlət büdcəsinə bərpası üçün təxirəsalınmaz tədbirlər görülüb.**




Bu barədə nazirliyin ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib. Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev deyib ki, "Tibbi-sosial ekspert komissiyaları haqqında Əsasnamə"yə, "Əlilliyin və sağlamlıq imkanlarının məhdudluğunun müəyyən olunması meyarlarına dair Əsasnamə"yə və "Tibbi-sosial ekspertiza müayinəsinə göndərişlərin verilməsi Qaydaları"na əlavə və dəyişikliklər üzrə təkliflər paketi hazırlanır. Əlillik təyinatının əmək qabiliyyətinin itirilmə faizi əsasında aparılması ilə əlaqədar müasir dünya təcrübəsi öyrənilir və milli səviyyədə tətbiqi məsələləri araşdırılır.

YENİ MÜSAVAT
N 151 (7040) 14 iyul 2018

# Vahid Əhmədovdan Mingəçevir və Gəncə hadisələri ilə bağlı şok açıqlamalar

## “Bəzi icra başçıları məmur-vətəndaş münasibətlərində çox ciddi problemlər yaradırlar”

**“Baxış bucağı”**

**Deputat Vahid Əhmədov Mingəçevirdə baş verən elektrik enerjisi qəzası və Gəncədəki qanlı hadisələrlə bağlı “Yeni Müsavat”a geniş müsahibə verib.**

***- Vahid bəy, kifayət qədər siyasi təcrübəli şəxs olaraq son günlər ölkəmizdə baş verənləri necə dəyərləndirirsiniz, mövcud vəziyyətlə bağlı narahatlığınız varmı?***

- Əlbəttə, vəziyyətdən ciddi şəkildə narahatam. İlk olaraq deyim ki, belə hadisələrin baş verməsini hansısa bir məmura qarşı adi cinayət kimi qəbul etmək olmaz. Bu, çox ciddi bir prosesdir və bu prosesin də həyat keçirilməsində xarici qüvvələrin əli var. Bunu ilk gündən demişəm. Qəfildən Mingəçevirdə məlum hadisələrin baş verməsi, daha sonra Gəncədə icra başçısına sui-qəsd edilməsi, ardınca iki polis zabitinin öldürülməsi... Allah polislərimizə rəhmət eləsin, deyirlər hər ikisi çox yaxşı insanlar olub, onlar barədə müsbət fikirlər səslənir. Cərəyan edən hadisələr onu göstərir ki, Azərbaycana qarşı bir mərkəzdən idarə olunan proses gedir. Fikir verin, son vaxtlar Azərbaycanda iqtisadi sahədə bir sıra problemlər olsa da, çox ciddi layihələr həyata keçirilməyə başladı. TANAP-TAP layihəsi ilə əlaqədar ciddi addımlar atıldı. Azərbaycan öz qazını Avropaya çıxarmaq ərəfəsindədir. Bu ilin axırında yəqin ki, layihənin ilk hissəsi yekunlaşdırılacaq, 2020-ci ildə isə ikinci hissə başa çatdırılacaq. Açığını deyim, əvvəldən də Rusiya dövləti bu layihənin reallaşdırılmasının əleyhinə idi. Moskva deyirdi ki, gəlin Azərbaycan qazını Rusiya vasitəsilə Avropaya çıxaraq. Çünki Avropa bazarında olan bu hegemonluq Rusiyaya məxsusdur. Amma cənab prezident öz uzaqgörənliyini bir daha göstərərək, Azərbaycanın müstəqilliyini ön plana çəkərək, belə bir layihəni Gürcüstan, Türkiyə vasitəsilə Avropaya çıxartmaq qərarını verdi, bu da uğurla həyata keçirilir. Bu layihənin reallaşması həm Avropanın marağındadır, həm də ABŞ-ın, ona görə də bizə bu layihədə dəstək verirlər. Mən belə hesab edirəm ki, bütün bu hadisələrin məğzi məhz həmin proseslərlə əlaqədardır.

***- Siz təhlükəli proseslərin Rusiyadan idarə olunduğu qənaətindəsiniz?***

- Rusiyadan da ola bilər, İrandan da. Amma məqsəd budur: Azərbaycanın daxilində ciddi problemlər yaratmaq, Azərbaycanın müstəqilliyinə zərbə vurmaq və insanlarda “Azərbaycan müstəqil dövlət kimi yaşamaq iqtidarında deyil” və s. kimi rəy formalaşdırmaq istəyirlər. Son vaxtlar bəzi dövlət xadimlərinin, siyasət adamlarının da çıxışlarını izləyirəm ki, deyirlər Qarabağ məsələsini yalnız və yalnız Rusiya həll edə bilər...

***- Eks-prezident Ayaz Mütəllibovun dediklərini nəzərdə tutursunuz?***

- Mən onun da müsahibəsini oxudum. Bu fikirlərlə tamamilə razı deyiləm. Əvvəla, Qarabağ məsələsi çox böyük problemdir. Artıq bu, siyasiləşmiş məsələdir. Qərb, ABŞ, Türkiyə olmadan Rusiya heç vaxt bu problemi təkbaşına həll edə bilməz. Ancaq Azərbaycan istəsə, Qarabağ məsələsini hərbi yolla həll edə, torpaqlarını azad edə bilər. Burada isə müəyyən ciddi problemlərin yaranmasını gözləmək olar. Necə ki, cənab prezident həmişə deyir ki, biz bu məsələni sülh yolu ilə həll etmək istəyirik. Bəzi siyasət adamlarının Rusiyanı bu qədər şişirtməsi və Rusiyanın bu məsələni həll edəcəyini deməsi ilə qəti şəkildə razılaşmıram, bunu qəbul etmirəm.



**“Gəncədə baş verən hadisələr zamanı ağsaqqallar da öz sözlərini deməliydilər, çıxıb əhali ilə danışmalıydılar”**

Rusiya bizim strateji müttəfiqimiz, qonşumuzdur, onunla çox ciddi iqtisadi-siyasi, humanitar əlaqələrimiz var. Dövlət başçılarının da münasibətləri yüksək səviyyədədir. Amma Rusiyanın digər dövlətlərdə apardığı işğalçılıq siyasətini qəbul etmirəm. Biz müstəqil dövlətimizi qurmuşuq. Bu dövlət özbaşına qurulmayıb axı, dövləti quran, bu yolda canından keçən insanlar olub. Çalışmaq lazımdır ki, bu münasibətlər normal şəkildə inkişaf etsin. Dağlıq Qarabağ münaqişəsini Rusiya yaradıb da, mən yaratmışam?! Bəlkə başqa dövlətlər yaradıb? SSRİ yaratdı, onun da varisi Rusiyadır. 1994-cü ildə atəşkəs haqqında sazişi imzalamışıq. 24 ildə Rusiya deyibmi ki, gedin 1 kv m. torpağınızı azad edin? Yox. Yalnız iki dəfə, aprel döyüşlərində və Naxçıvan istiqamətində ərazilərimizin bir hissəsini azad etdik, bu da prezidentin göstərişi ilə həyata keçirildi. Biz 70 il bu dövlətin əsarətində olmuşuq. Baxmayaraq ki, müəyyən müsbət cəhətləri də olub, biz o vaxt təhsil almışıq və s. Həmçinin digər müsbət amillər də olub. Amma biz öz sərvətlərimizə, neft-qazımıza heç vaxt sahib olmamışıq. Yalnız müstəqilliyimiz elan olunandan sonra bunun bəhrəsini görməyə başlamışıq. Düzdür, indi müəyyən çətinliklər, problemlər ola bilər, amma vaxt gələcək bizim övladlarımız daha firavan yaşayacaq, Azərbaycan demokratik, inkişaf etmiş bir dövlət kimi dünyada mövcud olacaq. Ona görə də hesab edirəm ki, baş verən hadisələr bizim üçün qəbuledilməzdir. Azərbaycan prezidenti İlham Əliyev iyulun 13-də hüquq-mühafizə orqanları rəhbərlərinin iştirakı ilə keçirilən iclasda da çox düzgün olaraq bildirdi ki, müstəqillik illərində bir neçə belə cinayət törədilib, lakin həmin qüvvələr niyyətlərinə çatmayıb. Dövlət başçısı Azərbaycanda xalq-iqtidar birliyinin olduğunu deməklə yanaşı, qətiyyətlə bildirdi ki, heç kim məsuliyyətdən boyun qaçıra bilməyəcək. Bu hadisələri törədən şəxslərlə bağlı ciddi araşdırma aparılmalı, onlar cinayət məsuliyyətinə cəlb edilməlidir.

***- Sosial şəbəkədə bir yanaşmanı gördüm ki, əgər Gəncənin Vahid Əhmədov kimi deputatı, yaxud icra başçısı olsaydı, bəlkə də vəziyyət bu qədər kritik həddə çatmazdı, insanlarla təmas yaradıb gərginliyi azaltmaq olardı, necə ki, Qubada daha ağır faciələrin baş verməməsi üçün əlindən gələni etdi. Bu kimi yanaşmalara münasibətiniz necədir? Yeri gəlmişkən, dövlət başçısı da hər zaman məmur-vətəndaş münasibətləri il bağlı tövsiyə və xəbərdarlıqlarını edib. Siz burada daxili amillərin rol oynadığı barədə fikirləri bölüşürsünüzmü?***

- Mənimlə bağlı fikirləri oxumamışam. Amma məmur-vətəndaş münasibətinə toxunmaq istərdim. Cənab prezident də dəfələrlə bu barədə mövqeyini ifadə edib. Bu, çox ciddi məsələdir və hazırda bu problem var. Deməzdim ki, bu problem yalnız Gəncədədir. Bir çox regionlarda bu problem var.

**“Bunların hamısını araşdırmaq, lazım gələrsə, müdaxilə edən hansısa bir dövlətə nota da vermək lazımdır ki, Azərbaycanın müstəqilliyinə xələl gətirən hadisələrə yol verilməsin”**

Prezident hər zaman icra başçılarını, nazirləri təyin edəndə onlara tövsiyələr verir. Ona görə də mən həmişə məmurlara deyirəm ki, sizin ibrət dərsi götürəcəyiniz şəxs var. Prezidentin vətəndaşlarla, insanlarla münasibətini həmişə göz qabağına gətirin, bu münasibətlər həmişə sizin üçün nümunə olsun! Çox təəssüflər olsun ki, bəzi icra başçıları - hamısını deyə bilmərəm, yaxşıları da var, amma əksəriyyəti - məmur-vətəndaş münasibətlərində çox ciddi problemlər yaradırlar. Onlar özlərini vətəndaşdan yuxarıda hissi edirlər, insanları aşağıda görürlər, bu, qəbuledilməzdir! Hesab edirəm ki, Gəncədə baş verən hadisələr zamanı ağsaqqallar da öz sözlərini deməliydilər, çıxıb əhali ilə danışmalıydılar. Heç bir günahı olmayan iki polisin öldürülməsi qəbuledilməzdir. Onların ana-bacıları, balaları niyə gözüyaşlı qalmalıydı? Onların bu məsələlərdə heç bir günahı yoxdur.

Ümumiyyətlə, bu silsilə xarakterli hadisələrin hamısı idarə olunan hadisələrdir. Bunların hamısını araşdırmaq, lazım gələrsə, müdaxilə edən hansısa bir dövlətə nota da vermək lazımdır ki, Azərbaycanın müstəqilliyinə xələl gətirən hadisələrə yol verilməsin! Mən baş verənləri adi hadisələr saymıram. Bilirsiniz ki, mən müstəqilliyin qorunması uğrunda istənilən varianta hazıram. Hiss etsəm ki, bu gün Azərbaycanın müstəqilliyinə hansısa ciddi təhdid var, istənilən vaxt həmin insanlara qarşı mübarizə aparmaq əzmindəyəm. Çünki müstəqillik bizim üçün çox əzizdir, müstəqilliyimiz əbədi və daimi olmalıdır.

***- “Azərenerji”də baş verənlərdə necə, xarici amillərin rolu ola bilərmi?***

- Hər şey ola bilər, niyə ola bilməz? Mən heç nəyi istisna etmirəm. Elə bilirsiniz daxildə xarici ölkələri müdafiə edən insanlarımız yoxdur? “Beşinci kolon” təhlükəsi var. Elə son vaxtlar bu təhlükələrlə bağlı sizin qəzetdə nə qədər yazılar gedib. Ola bilər ki, həmin insanların da o dövlətlər qarşısında müəyyən öhdəlikləri var, bu, istisna deyil. Ona görə də məsələlər ciddi araşdırılmalıdır. Dövlət Təhlükəsizlik Xidmətində kifayət qədər təcrübəli insanlar çalışır. Mən şəxsən Mədət Quliyevi tanıyıram, təcrübəli bir insandır. Yəqin ki, bu hadisələrlə ciddi məşğul olub, həmin insanların müəyyən edilməsinə və cəzalandırılmasına nail olacaqlar.

Bir məsələyə də toxunmaq istəyirəm. Baxıram ki, “Azərenerji” ilə bağlı geniş müzakirələr gedir. İlham Əliyev prezident seçildiyi 2003-cü ildən bəri bu sistemə külli miqdarda vəsait xərcləmişik. Həmçinin 30-dan çox elektrik stansiyaları tikilib, istifadəyə verilib. Əvvəllər işıqla əlaqədar rayonlarda, elə paytaxtımızda çox ciddi problemlər var idi. Amma son hadisələrə qədər elə ciddi problem yox idi. Birincisi, o vəsaitin xərclənməsinin hamısını Etibar Pirverdiyevlə bağlamaq olmaz. Buna məsul olan digər qurumlar da var. Azərbaycan hökuməti, Nazirlər Kabineti, bu qurumda həmin sahəyə məsul şəxslər, şöbələr var, həmçinin baş nazirin müavini var. Mingəçevir İES həmişə nəzarətdə olub. Mən baş nazirin birinci müavini olanda mütəmadi şəkildə ora getmişik, baxmışıq, müəyyən işlər görülüb. Görünür, son vaxtlar bu məsələ nəzarətdən yayınıb. Ona görə də araşdırmanı ciddi aparmaq lazımdır. Azərbaycanda xüsusi nazirlik yaradılıb, Energetika Nazirliyi, o nazirlik nə ilə məşğul olur? Orada xüsusi şöbələr, nəzarət orqanları var. Bunlar araşdırılmalıdır ki, günahkarların kimliyi barədə əhaliyə məlumat verilsin.

***- Gəncə hadisələrinin prezidentin Brüssel səfəri, NATO sammitinə qatılması, Avropa İttifaqı ilə sazişin imzalanması ərəfəsində baş verməsi bu əməkdaşlıqda maraqlı olmayan qüvvələrin sürprizi, təxribatı sayıla bilərmi? Dövlət başçısı da NATO zirvəsində iştirakdan bəhs edərkən dedi ki, “Bizim iradəmizə, siyasətimizə şər qüvvələr təsir edə bilmir”. Əminliklə demək olarmı ki, Bakı Avrointeqrasiya xəttindən imtina etməyəcək?***

-Yox. Proses gedir. Mən həmişə demişəm, razılaşmayanlar da olub, amma Azərbaycan Avropaya inteqrasiya etməlidir, edəcək də. Biz istəsək də, istəməsək də. Avropa İttifaqı ilə imzalanan saziş bir daha onu göstərdi ki, yolumuz budur. Nə qədər ağır, çətin yol olsa da, biz bu yolu getməliyik, gedirik, necə ki, belə bir saziş imzalandı. Digər tərəfdən, NATO-nun sammitində cənab prezidentinin iştirakı elə-belə məsələ deyildi. Biz onsuz da Avropa ilə, ABŞ-la işləyirik. Məqsədimiz də ondan ibarətdir ki, müstəqilliyimizə kimsə toxunmasın. Bizim heç kimin puluna, köməyinə ehtiyacımız yoxdur. Azərbaycan kifayət qədər özünü dolandırmaq imkanına malikdir. Ona görə də biz normal, yüksək səviyyədə iqtisadi, siyasi, humanitar və v. əlaqələrimiz olsun. Müstəqillik məsələsini isə biz heç kəsə güzəştə getməyəcəyik.

***- Prezident seçkiləri önə çəkiləndə bəzi ekspertlər deyirdilər ki, Azərbaycanı qarışdırmaq istəyən qüvvələr var. Baş verənlər həmin proqnoz və məlumatların doğru olduğu qənaətini yaratmırmı?***

- Ümumiyyətlə, hər dəfə prezident seçkiləri ərəfəsində ölkəmizə müəyyən sürprizlər etmək istəyirlər. 2013-cü ildə də sürprizlər hazırlanmışdı, o təhlükə də şimaldan gəlirdi. İndi də ola bilər. Açığını deyim, bu sürprizlər Qərbdə də hazırlana bilər. Çünki hər bir dövlət Azərbaycan kimi varlı, perspektivli ölkəni öz yanında olmasını, onun maraqlarına cavab verməsini istəyir. Azərbaycan hökuməti, dövləti müəyyən məsələlərdə bir qədər ehtiyatlı olmalıdır. Birincisi, cənab prezidentin göstərişləri var məmur-vətəndaş münasibətləri ilə bağlı. Birmənalı şəkildə bu, qaydaya salınmalıdır. Cənab prezidentin hökumətin son iclasında qaldırdığı korrupsiya və rüşvətxorluq məsələləri ilə bağlı ciddi tədbirlər görülməlidir. Düzdür, bunu tamamilə ləğv etmək mümkün deyil, bütün dövlətlərdə mövcuddur. Amma biz çalışmalıyıq ki, korrupsiya və rüşvət ölkədə ciddi şəkildə azalsın. Bu məsələləri həll etməliyik. Necə ki, “ASAN Xidmət” yaradıldı, müəyyən neqativlər aradan qaldırıldı, bu işləri davam etdirmək lazımdır ki, ölkəmizdə ciddi problemlər yaranmasın. Unutmayaq ki, korrupsiya və rüşvət bizim dövlətimizin imicinə, milli təhlükəsizliyimizə zərər vuran məsələlərdir.

**❑ Elşad PAŞASOY, “Yenì Müsavat”**



# Bulvardakı gürzənin məqsədi

Zamin HACI
zaminhaci@gmail.com

"Paymal etmə bizi, mür görüb ey qafil,
Mür ikən mar oluruz, mar ikən əjdərhayız"
**(Mirzə İsa Xəyali, 19-cu əsr Azərbaycan şairi)**

**Bəzən deyirlər xalq və hakimiyyət bir-birinə bərabərdir, bununla razılaşmıram. Fikrimcə, bizdə hakimiyyət xalqdan çox qabağa gedibdir. O üzdən camaat hökumətin gördüyü və görmədiyi işləri düzgün qiymətləndirməkdə çətinlik çəkir.**

Örnək üçün, dünən baxıram, biri Bakı bulvarında ilanın videosunu çəkib internetdə qoyubdur, milləti bulvar gəzintisindən çəkindirmək istəyir. Guya biz ilandan qorxmalıyıq. Halbuki, ilanın bulvarda gəzintiyə çıxmaq şövqü ölkəmizin inkişafından danışır. Gürzə rayonda, dağda-daşda yox, paytaxtda gəzirsə, bu, regionların inkişaf planının uğurundan xəbər verir! Görün necə asudə şərait yaranıb, ilanın ağı da, qarası da lənətlənməkdən qorxmadan ictimai yerlərdə gəzişirlər! Şair bu məqamda yaxşı söyləmişdir: "Özün öz yolunsan, ilan balası, Özün bu dünyada öz əzizinsən, Özün öz balansan, ilan balası!" Bəli. Əlbəttə, şair bu misraları AXC-Müsavat dövründə yazmışdır, o zaman kimin ağlına gələrdi ki, yaxın gələcəkdə ilanlar hamının əzizi olacaqdır, hər birimiz ilanları öz balamız kimi əzizləyib bağrımızın başında saxlayacağıq. İndiki dövrdə isə, lazım gəlsə biz Bakıda pitonların, anakondaların, kobraların, əjdaha və dinozavrların millətə qarışıb sərbəst, sabitlik şəraitində gecə-gündüz dolaşmasına hazır olmalıyıq. Hətta xahiş edərdik hökumət 2019-cu ili "İlanlarla həmrəylik ili" elan etsin. (İlan ili onsuz var, məcburuq adını fərqlilik üçün belə qoyaq).

O cümlədən, bir bisavad təhsil eksperti hay-küy qoparıb, deyir dövlət universitetlərdə həkimliyə qəbul planını olduqca böyük miqyasda azaldaraq əvəzində bədən tərbiyəsi ixtisaslarında planı artırıbdır. Dızıldayır ki, (Tağı müəllim demişkən) bizə bu qədər bədən tərbiyəsi mütəxəssisi nəyə lazımdır, həkimsiz qalacağıq, xəstələnib öləcəyik, ay haray, urra, iş-çörək-Qarabağ, Milli Şura-lotusan vur bura, qoy millətdə ruh yaşasın və sairə!

Doğrusu, bilmirəm bu təhsil ekspertini hansısa üsulla Gəncə hadisələrinə əlaqələndirib qoduqluğa basmaq mümkündürmü. Hər halda, ümid edirəm əlaqədar təşkilatlar bu yönümdə fəaliyyətlərini uca millətimizdən əsirgəməyəcəkdir. Ancaq bu yaramaz iftira sözün əsl mənasında burnunun ucundan uzağı görməməyin nəticəsidir. Bəyəm bu yoldaş anlamır ki, bədən tərbiyəsi çox olsa, heç millətə gələcəkdə həkim lazım olmayacaqdır?! Hamımız idman eləsək, xəstəliklərə qalib gəlsək, sağlam bədəndə sağlam ruh olsa, hər kəs yüz il yaşamasa, günah onun özündədir!

Eynilə bir vaxt bizdə qəzetlər, jurnalistlər boğulanda, redaktorlar türməyə basılanda bu müdrik siyasəti başa düşmürdük. Ancaq nəticəsi nədir? Pis hadisələr demək olar yoxdur! Deməli bunun hamısını eləyənlər jurnalistlər imiş. Yazıb quldurları həvəsləndirirdilər. O cümlədən, kimin kimə, neçə manat rüşvət verdiyini yazırdılar, camaat preyskurantı öyrənirdi, korrupsiyaya həvəslənirdi.

Bakı Şəhər İcra Hakimiyyətinin bir neçə aydır başçısız qalması da bu qəbildəndir. (Çaşıb "qəbilədəndir" yazmışdım, əlaqədar orqanlardan üzr istəyirəm, ümid edirəm onlar bunu görmədilər. Hərçənd, qəbilə sözünə də bizdə nədənsə mənfi münasibət yaranıbdır, halbuki gözəl sözdür. O boyda Hindistanda ayrıca Qəbilə və Tayfa Nazirliyi vardır - Z.H.). Xeyli bekar adam var, idarənin Hacıbala müəllimdən sonra niyə boş qalmasını öz ağıllarında guya analiz eləyirlər. Bu deyir ona görədir, o deyir buna görədir... Eyni adamlar 20 il idi donquldanırdılar ki, Hacıbala müəllim niyə çıxarılmır. Bunları nə təhər razı salasan? Əkin yerini dincə qoyursan, gələcəkdə yaxşı məhsul versin. Bəlkə BŞİH rəhbəri vəzifəsi də bizdə dincə qoyulubdur?

Ancaq mən hesab edirəm dövlət siyasətimizdə daha müdrik, daha planlı bir məsələ nəzərdə tutularaq BŞİH başçısı vəzifəsi boş saxlanılır. Bu da son hadisələrin analizindən doğan fikirlərdir. Bax, xaricdə çoxlu düşmənlərimiz var, onlar daim aranı qarışdırmaq, icra hakimlərinə terror eləmək istəyirlər. Hesab edək həmin terror mərkəzlərindən biri öz şpionunu öyrədib, kurs keçib göndərdi Bakıya, dedi get bunun icra başçısını vur, qoy ara qarışsın. Gələcək, şifroqram göndərəcək ki, lənət şeytana, öldürməyə adam yoxdur, neçə gündür durbinlə baxıram, kreslo boşdur. Sonra da ya təslim olacaq, ya bulvarda dənizə tullanıb intihar edəcək.

İntihar da eləməsə bulvarda gürzə özü onu mələdəcəkdir.

---

**Ermənistanın baş naziri Nikol Paşinyanın Avropaya ilk səfəri erməni tərəfinin, onun KİV-nin yaratdığı təbliğati hay-küyə rəğmən, uğursuz oldu. N.Paşinyan Brüssel səfərindən məyus və əli boş qayıtdı. Artıq bunu əminliklə qeyd eləmək olar. Avropa Birliyi (AB) və NATO rəsmiləri ilə, Fransa və bəzi digər AB ölkələri prezidentləri ilə görüşsə də, işğalçı ölkənin rəhbərinə real heç bir maliyyə-siyasi, təhlükəsizlik vədi verilmədi. Qarabağ məsələsində də İrəvanın gözləntiləri puç oldu.**



# Paşinyanın Avropa fiaskosu - "Bizi başdan elədilər..."

## Qərb paytaxtlarından Rusiyaya qarşı qarant və 160 milyon avro almağa gedən erməni baş nazir pərt oldu; Paşinyandan acı etiraflar: "Avropanın bu mövqeyi bizim üçün aydın və qəbuledilən deyil, Ermənistan konkret kömək gözləyirdi, onlar isə... "

Nikol Paşinyan "inqilabın" lideri kimi əmin idi ki, AB-dən və onun rəsmilərindən özünə və ölkəsinə qarşı böyük diqqət olacaq. Amma onun önünə heç kim "qırmızı xalça" sərmədi, Paşinyanın təntənəli şəkildə, alqışlarla qarşılanması da baş vermədi...

*****

Erməni baş nazir isə belə görünür, özünü sındırmamaq üçün səfərin əsas nəticəsi kimi "İrəvanın mövqeyinin Avropa paytaxtlarına izah eləməsində" gördüyünü deyib. "Yeni Müsavat" "Sputnik Armeniya" nəşrinə istinadən xəbər verir ki, bunu Paşinyan Brüsseldə səfərin yekunları ilə bağlı erməni və xarici jurnalistlər üçün keçirdiyi mətbuat konfransında söyləyib.

"İnqilabdan sonra Ermənistan demokratik yolla inkişaf eləmək niyyətindədir" deyən Paşinyan beynəlxalq tərəfdaşlarının köməyi ilə Ermənistanın bunu daha tez həyata keçirə biləcəyini söyləyib. "Lakin İrəvan yalvarışçı durumda da olmayacaq", - deyə o, bu yöndə real dəstək görmədiyi Avropa paytaxtlarından gileyini ifadə edib.

**Eyni zamanda o, Avropanın Ermənistana münasibətdə mövqeyinin ona tam aydın olmadığını etiraf edib:** "Ermənistandakı "məxməri inqilab"dan sonra Avropa paytaxtlarının yüksək səviyyəli bəyanatları real işlə tamamlanmayıb. Az öncə bəyan edildi ki, Avropa Birliyi Ermənistana 160 milyon avro yardım eləməyə hazırlaşır. Bu, məhz AB tərəfindən bu və ya başqa şəkildə nəzərdə tutulan yardımın məbləği idi. Mən tərəfdaşlarımıza dedim, baxmayaraq ki, əvvəllər bu rəqəm açıqlanmayıb, ancaq mən işin içindəyəm ki, bir neçə ay öncə bu məsələ var idi. Yəni heç nə dəyişməyib".

**Yekunda erməni baş nazir təəssüflə qeyd edib ki, Avropa liderlərinin isti bəyanatlarına rəğmən, onların İrəvana münasibətdə siyasəti mahiyyət etibarilə dəyişməz qalıb.** "Halbuki Ermənistan onlardan daha konkret və daha böyük həcmdə dəstək gözləyirdi. Açığı, mən bizim tərəfdaşlara anlatdım ki, bu, bizim üçün elə də aydın və qəbuledilən deyil. Başqa yandan, bir daha təkrarlayım ki, biz dilənçi mövqeyində də olmayacağıq. Bu - onların mövqeyi, onların seçimidir. Hansı siyasəti yürütmək də onların öz işidir. Nə vaxt mövqelərini dəqiqləşdirirlər, o vaxt da biz onların siyasətinə münasibətimizi müəyyən edərik".

**Erməni qaynaqlarının yazdığına görə, Paşinyan qeyd edib ki, "bu mövqeni avropalı tərəfdaşlarına anladıb" və bundan ötrü "müxtəlif üsul və aksentlərdən" istifadə edib.** "Onlar hay-küylü bəyanatlar verirlər, amma işə gələndə əvvəlki rəqəmləri yeni kimi təqdim edirlər. Əgər onların işi yalnız bundan ibarətdirsə, qoy tempi bir az aşağı salsınlar. Yox, tonu aşağı salmırlarsa, onda kömək eləsinlər və daha yaxşı əməkdaşlıq eləsinlər", - deyə erməni baş nazir bir az da Avropa liderlərinə ağıl öyrədirmiş kimi, hədələyici tonda fikrini tamamlayıb.

*****

Beləcə, Ermənistanın baş naziri çox ümid elədiyi Avropa turnesindən "əli ətəyindən uzun", heç bir maliyyə, hətta ciddi siyasi dəstək almadan geri dönüb. Paşinyan Brüsselə səfəri zamanı, məlumatlara görə, cidd-cəhdlə AB-dən ən azı, 70-80 milyon avro pul almaq istəyirdi. Bu vəsait büdcəsi boş olan Ermənistanda yeni seçkilərin keçirilməsi üçün vacibdir. Görünən budur ki, Nikol Paşinyan nə qədər ki, nüfuzu qalır, qısa müddətdə seçkilər keçirib məsələni həll etmək istəyir. Avropa İttifaqı isə açıq şəkildə bəyan etdi ki, belə vəsait yoxdur və ona hələlik islahatların nəticəsinin gözləndiyi bildirildi.

Bütün bunların adı isə fiaskodur. "Yeni Müsavat" ötən sayında yazdığı kimi, o sırada Paşinyanın Qarabağ şərti də *(separatçıları müstəqil tərəf kimi sülh danışıqlarına qoşmaq tələbi)* Avropada qəbul olunmayıb və Brüsseldə həmsədrlərin iştirakı ilə reallaşan və 4 saat çəkən ilk Məmmədyarov-Mnatsakanyan görüşü ilə köhnə formatda danışıqlar davam etdirilib. AB-nin baş diplomatı Federiko Mogerini məhz İrəvana açıq mesaj olaraq bəyan etdi ki, danışıqlar prosesi heç bir şərt qoyulmadan davam etdirilməlidir.

Bundan əlavə, istər Azərbaycanla AB arasında paraflanmış "Tərəfdaşlıq prioritetləri" sənədində, istərsə də NATO sammitinin yekun sənədində Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və müstəqilliyinə bir daha dəstək ifadə olundu. Ermənistanın NATO-nun yekun sənədinə xalqların öz müqəddəratını təyin etmə prinsipini daxil etmək cəhdi də iflasa uğradı.

*****

Böyük bir heyətlə Brüsselə gedən Paşinyanın fiaskosunun səbəblərinə gəlincə, onun Qərb liderləri ilə gülərüz şəkillər çəkilməsinə rəğmən, bir daha əminlik hasil oldu ki, Avropa paytaxtlarında, Vaşinqtonda haqlı olaraq, Nikol Paşinyanın öz sələfi Serj Sərkisyan kimi xarici oriyentasiya ilə bağlı "iki stulda" oturmaq siyasəti ciddi qəbul edilmir. Onlar Rusiyanın ağuşunda ola-ola, Kremlin hərbi-siyasi müttəfiqi və hərbi qalası qismində qala-qala, demokratik dəyişikliklərin baş verəcəyinə və köklü islahatlar aparılacağına inanmırlar. Kəsəsi, Paşinyanın inqilabi islahat proqramına şübhə ilə baxırlar.

Diqqət edin, qonşu Gürcüstanla bağlı Brüsseldə aydın bir mesaj verildi ki, bu ölkə mütləq NATO-nun üzvü olacaq, eyni zamanda NATO-nun Yekun bəyannaməsində ilk dəfə olaraq, Rusiyadan, üstəlik, öz işğalçı qoşunları Gürcüstan ərazisindən çıxarmaq tələb olundu. Münasibət, yanaşma, real dəstək budur.

Elə Azərbaycana münasibət də kifayət qədər isti, ciddi və Ermənistandan qat-qat güclü oldu. Azərbaycan prezidenti İlham Əliyevin Avropa və NATO rəsmiləri ilə görüşdə ölkəmizin regiondakı rolu və Avropa üçün önəmi, o sırada qitənin energetik təhlükəsizliyində Azərbaycanın ildən-ilə artan əhəmiyyəti bir daha, xüsusi vurğulandı. Azərbaycan prezidentinin və erməni baş nazirinin Brüsselə səfərləri əslində güclü, özünə güvənli böyük hörmət sahibi olan Azərbaycanın fonunda cılız, heç kimə lazım olmayan, olduqca zəif Ermənistanın obrazının açıq nümayişi oldu.

Hər necə olmasa, işğalçı ölkədən fərqli olaraq, müstəqil və şaxələndirilmiş xarici siyasət yürüdən Azərbaycanın Avropa üçün ən azından energetik dəyəri var. Ermənistan nə ilə dəyər kəsb edir bəs - ərazisindəki Rusiya qoşunları ilə və ya Moskvanın girovu olması iləmi? Paşinyan öncə bunlardan qurtulub Ermənistanın vassal yox, müstəqil dövlət olduğunu Avropaya sübut eləməlidir. Avropa, ABŞ ondan ən əvvəl bunu gözləyir. Əks halda, heç bir maliyyə, maddi, siyasi dəstək olmayacaq.

**Paşinyana Avropadan verilən ən güclü mesaj da budur.**

**❑ "Yeni Müsavat"ın**

YENİ MÜSAVAT
N 151 (7040) 14 iyul 2018

**İyulun 11-12-də Azərbaycan prezidenti İlham Əliyev Brüsseldə səfərdə olub. İyulun 11-də Brüsseldə Azərbaycanla Avropa İttifaqı arasında "Tərəfdaşlıq prioritetləri" sənədinin paraflanma mərasimi keçirilib. İlham Əliyev Brüsseldə Aİ Şurasının prezidenti Donald Tuskla görüşüb.**

# Avropa Birliyi və NATO-dan tarixi dəstək

## Azərbaycanın Avropa üçün önəmi artır




Prezident İlham Əliyev iyulun 11-də Brüsseldə NATO-nun müttəfiq və tərəfdaş ölkələrinin dövlət və hökumət başçıları üçün təşkil etdiyi qəbulda da iştirak edib.

İyulun 12-də isə Brüsseldə NATO-nun Əfqanıstanda həyata keçirdiyi əməliyyata töhfə verən tərəfdaş ölkələrin dövlət və hökumət başçılarının və potensial əməliyyat tərəfdaşlarının iştirakı ilə Qətiyyətli Dəstək missiyası üzrə Şimali Atlantika Şurasının görüşü olub. Azərbaycan prezidenti İlham Əliyev NATO-nun yeni mənzil-qərargahında keçirilən görüşdə iştirak edib.

İlham Əliyev şuranın görüşündə çıxış edərək, Azərbaycanla NATO arasında güclü tərəfdaşlıq əlaqələrinin regional təhlükəsizlik və sabitlik məsələlərində mühüm rol oynadığını qeyd edib. 2002-ci ildən başlayaraq Azərbaycan sülhməramlılarının NATO hərbçiləri ilə Əfqanıstanda çiyin-çiyinə xidmət etdiklərini, 2018-ci ilin yanvar ayından Azərbaycanın Qətiyyətli Dəstək missiyasındakı hərbçilərinin sayını 30 faiz artıraraq 120 nəfərə çatdırdığını bildirib.

**Deputat Bəxtiyar Sadıqov "Yeni Müsavat"a şərhində bildirdi ki, prezidentin Brüsselə səfəri, keçirdiyi görüşlər, imzalanmış sənədlər Azərbaycanla Avropa İttifaqı və Qərb arasında münasibətlərin, siyasi, iqtisadi, energetika, nəqliyyat və digər sahələrdə uğurlu əməkdaşlıq əlaqələrinin daha da dərinləşməsinə xidmət edir:** "Tərəfdaşlıq prioritetləri Aİ-Azərbaycan münasibətlərində irəliyə doğru vacib addımdır. Azərbaycanın son dövrlərdə apardığı siyasət, yəni istər enerji siyasəti, Azərbaycanın Avropanın ən etibarlı enerji tərəfdaşlarından birinə çevrilməsi və bu sahədə transmilli layihələrin uğurla gerçəkləşdirilməsi, istər Azərbaycanın demokratiya sahəsində gördüyü işlər, demokratik cəmiyyət qurulması, Azərbaycanın özünü dünyaya yeni imicdə təqdim edə bilməsi prezidentimizin gördüyü ən mühüm işlərdəndir. Bütün bunları Avropa İttifaqı və NATO kimi qurumlar yüksək qiymətləndirir. Təsadüfi deyil ki, Azərbaycan artıq beynəlxalq tədbirlərin, beynəlxalq səviyyəli görüşlərin keçirildiyi ölkə kimi qəbul edilir. Azərbaycana etibar edilir. Azərbaycanın Avropanın enerji təhlükəsizliyində rolu artır. Azərbaycanın liderliyi ilə həyata keçirilən transmilli enerji layihələri Avropanın enerji təhlükəsizliyinin təmin olunmasına mühüm töhfədir. Azərbaycan dünyada sülhün, əməkdaşlığın inkişafına dəyərli töhfələr verən bir ölkə kimi qəbul edilir. Bütün bunlar Avropa İttifaqı kimi qurumların diqqətindən yayınmır. Azərbaycan prezidentinin Brüsseldə necə yüksək ehtiramla yüksək səviyyədə qəbul edilməsi buna əyani sübutdur. Dövlət başçımızın Brüsselə səfəri çox uğurlu, səmərəli, faydalı, çox yaxşı nəticələrə səbəb olan səfər oldu. Azərbaycanın gələcəyi üçün yeni perspektivlər açan məhsuldar səfər həyata keçdi. Avropa İttifaqının Azərbaycanla tərəfdaşlıqda maraqlı olduğu bir daha rəsmi sənədlə ortaya qoyuldu. Azərbaycanla Avropa İttifaqı arasında paraflanmış "Tərəfdaşlıq prioritetləri" sənədi ikitərəfli tərəfdaşlıq əlaqələrinin gələcək inkişafı üçün yeni imkanlar açır".

**Deputat vurğuladı ki, Avropa İttifaqı ölkələrin ərazi bütövlüyü, müstəqilliyi və suverenliyi, dövlətlərin beynəlxalq sərhədlərinin toxunulmazlığı prinsipini dəstəkləyir:** "Sərhədlərin toxunulmazlığı məsələsi Avropa İttifaqı tərəfindən ilk dəfə xüsusi qeyd edildi. Bu faktın özü ərazisinin 20 faizi Ermənistanın işğalı altında olan Azərbaycan üçün mühüm əhəmiyyət kəsb edir.

Prezidentin Brüssel səfəri bir daha göstərdi ki, Avropa İttifaqı əlverişli geostrateji mövqeyə malik olan Azərbaycanın Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizi və mühüm enerji layihələrinin həyata keçirilməsinə rolunu yüksək qiymətləndirir. Həmçinin Avropa İttifaqı Azərbaycanın mədəniyyətlərarası dialoqun inkişafına əhəmiyyətli töhfə verən ölkə olduğunu bəyan etmiş oldu. Avropa İttifaqı Azərbaycanın dünyəvi və müasir cəmiyyət quruculuğu sahəsində müsbət təcrübəsini yüksək qiymətləndirir. Ölkə başçımızın Brüssel səfərinin nümayiş etdirdiyi digər mühüm məqam bu oldu".

**B.Sadıqov qeyd etdi ki, Prezident İlham Əliyevin Brüssel səfərinin mühüm detallarından biri NATO sammitində iştirak, orada keçirilən görüşlər, bu böyük beynəlxalq quruma tərəfdaşlıq istiqamətində əlaqələrin gücləndirilməsi oldu:** "Azərbaycanla NATO arasında güclü tərəfdaşlıq əlaqələri regional təhlükəsizlik və sabitlik məsələlərində mühüm rol oynayır. Azərbaycanın dünyada sülhyaratma prosesinə əməli töhfə verməsi NATO tərəfindən yüksək qiymətləndirilir. Qurumun rəhbərliyi Azərbaycan rəhbəri ilə görüşündə, həmçinin çıxışlarında bu məqamı xüsusi vurğulayıblar. NATO-ya üzv dövlətlərin Brüsseldə keçirilən zirvə toplantısının yekununda qəbul etdikləri kommunikedə növbəti dəfə Azərbaycan Respublikasının ərazi bütövlüyü, müstəqilliyi və suverenliyinə və eləcə də Ermənistan-Azərbaycan münaqişəsinin bu prinsiplər əsasında həllinə dəstək ifadə ediblər. Azərbaycan prezidentinin Brüssel səfərinin ən böyük uğurlarından biri bu faktdır".

**Deputatın sözlərinə görə, prezident İlham Əliyevin Brüssel səfərinin nəticələrinin təhlili onu göstərir ki, Avropa İttifaqının Azərbaycana və Ermənistana münasibətində ağırlıq yükü Azərbaycana verilir, Azərbaycanla əməkdaşlığa xüsusi önəm verilir:** "Avropa İttifaqı Azərbaycanı bütün sahələrdə etibarlı tərəfdaş kimi qəbul edir, Ermənistana isə bu münasibət yoxdur. Brüsseldə Ermənistanın etibarsız, ayağı sürüşkən ölkə olduğunun fərqindədirlər. Azərbaycan prezidenti Brüsseldə yüksək səviyyədə qarşılandı, nəzərdə tutulmuş bütün məsələlər uğurla həll olundu. İstər Avropa İttifaqı ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin inkişaf etdirilməsi, istər Dağlıq Qarabağ münaqişəsinin həlli baxımından, istərsə də digər məsələlərdə Avropa İttifaqı rəsmiləri Azərbaycana və Azərbaycan prezidentinə yüksək hörmət, etimad, böyük diqqət nümayiş etdirdilər. Azərbaycan əhəmiyyətli ölkə, söz sahibi kimi bir daha özünü təsdiq etdi".

**Deputat Zahid Oruc isə bildirib ki, prezidentin Brüssel səfəri, -11 iyul tarixi Azərbaycanın xarici siyasət maraqları baxımından əlamətdar tarixi gün sayıla bilər:** "Nəhayət, regional risklərin xofu və Ermənistanı Rusiyadan qoparmaq planlarına aludə olan avroçinovniklər postsovet məkanına vahid standartla yanaşmaya dair razılaşmaya gəldilər. Prezident İlham Əliyevin İttifaq Şurasının rəhbəri Donald Tuskla çiyin-çiyinə dayanaraq, razılıq hissiylə müşayiət etdikləri "Əməkdaşlıq prioritetləri" sənədində Qarabağla bağlı bundan sonra heç bir hüquqi spekulyasiyalara yer qoymayan müddəalar öz əksini tapdı. Halbuki cəmi 5 il qabaq Moldova və Gürcüstana açıq dəstəyin, Ukraynanın bütövlüyü uğrunda az qala silahlı mübarizənin səngərində keşik çəkən Qoca qitənin strateqləri Cənubi Qafqazdakı daşların yerini dəqiq müəyyənləşdirmədən qonşuluq siyasətinin bəhrə verməyəcəyinə əmin oldular. Ermənistanın xarici işlər naziri inqilabdan sonra yeni ampluada qəbul olunan Paşinyan hökumətinə NATO və Avropa İttifaqı salonlarında əlahiddə bir simpatiyanın olduğunu zənn edib, son deklarasiyalarda kəskin formulələrin olmayacağını düşünürdü. Hətta açıq təhdid diliylə danışaraq, onların maraqlarını tanımayacaqları təqdirdə zirvə görüşünə getməyəcəklərini bəyan etmişdilər. Lakin olmadı. Necə deylərlər, məxməri dəyişikliyə görə arzulanan mükafatı Qarabağdan çıxarmaq ideyası iflasa uğradı. Azərbaycanın da sərhədlərinin toxunulmazlığı, ərazi bütövlüyünə dəstək ifadə edən sənəd qəbul edildi".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# "Erməniləri götürüb rədd etmək..."

## Jirinovski: "Biz tərəflərdən birinin xeyrinə mövqe tuta bilmərik"



**"Hesab edirəm ki, böhranlı vəziyyətlərdə hər hansı görüş vacibdir. Baxın, bu yaxınlarda Putin və Tramp görüşəcəklər. Rusiya ilə ABŞ arasında da münasibətlər çox mürəkkəbdir. Trampı onun administrasiyasından çoxları bu görüşdə iştirak etmək fikrindən daşındırmağa çalışır. Lakin o, görüşü istəyir, çünki başa düşür ki, danışıqlarsız münasibətləri düzəltmək mümkün deyil. Qarabağda da vəziyyət bu cürdür".**

Bu sözləri APA-ya müsahibəsində Dövlət Dumasının deputatlarının və rusiyalı siyasi ekspertlərin Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində keçirilən tədbirdə iştirakına münasibət bildirən Rusiya Liberal Demokrat Partiyasının lideri Vladimir Jirinovski deyib.

V. Jirinovski bildirib ki, Rusiya vəziyyətin nizamlanmasının təminatçısı kimi çıxış edir: "Bu münaqişədə Azərbaycan özünü haqlı hesab edir, Ermənistan isə özünü. Erməniləri, sadəcə, götürüb rədd etmək olmaz. Ona görə də biz hər hansı bir görüşə isti baxırıq. Belə görüşlər ancaq münaqişənin xeyrinədir. Danışıqlar bütün hallarda müharibədən yaxşıdır".

**V. Jirinovski Rusiyanın Qarabağ münaqişəsi tərəflərindən birinin xeyrinə mövqe tutmasının mümkün olmadığını vurğulayıb:** "Başa düşmək lazımdır ki, biz münaqişə tərəflərindən birinin xeyrinə birmənalı mövqe tuta bilmərik. Ona görə ki, belə mövqe vəziyyəti daha da mürəkkəbləşdirməyə gətirib çıxarar. Bəşəriyyət və dünya siyasəti belə qurulub. Hamı ilə işgüzar münasibətləri dəstəkləmək bizim marağımızdadır. Ona görə ki, sərhədlərimiz yanında böhranlar bizə sərf etmir".

V. Jirinovski münaqişənin həlli ilə bağlı uzun illərdir təkrarladığı reseptdən danışıb: "Bütün postsovet məkanında millətlərarası və ərazi münaqişələri mövcuddur. Bu münaqişə təkcə Dağlıq Qarabağda deyil, Cənubi Osetiya, Abxaziya, Şərqi Ukrayna, Krım, Qırğızıstan və Özbəkistan arasında da münaqişə ocaqları var. Bütün bunlar bolşeviklərin dövründə sərhədlərin səhv müəyyən edilməsinin, vahid ölkənin milli regionlara və süni sərhədlərə bölünməsinin nəticəsidir. Bu köhnə qərarı 70 il keçəndən sonra, SSRİ dağılan vaxt partlatdılar. Vəziyyəti ancaq ilk səhvi aradan qaldırmaqla düzəltmək olar. Keçmiş SSRİ ərazisində sülh ancaq vahid ölkənin yenidən birləşdirilməsi zamanı mümkün ola bilər. Lakin biz heç kəsi məcbur edə bilmərik. Ancaq könüllü şəkildə birləşmək olar. Gec-tez biz buna gələcəyik. Lakin hələlik maraqlar balansına riayət etməyə məcburuq ki, bu və ya digər dondurulmuş münaqişə yanmağa başlamasın".

**"Bir neçə il bundan qabaq siz Azərbaycanda səfərdə oldunuz. Azərbaycan prezidenti İlham Əliyev sizi qəbul etdi. Səfərinizdən sonra Azərbaycan haqqında müsbət fikirlər işlətdiniz. Bu səfərə kimi sizin haqqınızda Azərbaycan ictimaiyyətində anti-Azərbaycan, ermənipərəst mövqe tutan şəxs imici var idi. Səfərdən sonra Azərbaycan ictimaiyyətindəki bu mövqedə ciddi dəyişikliklər olmuşdu. Lakin Solovyovun məlum verilişində Baqdasarovla həmrəy olmağınız yenidən sizin ermənipərəst mövqeyinizi ortaya qoydu. Bu barədə nə deyə bilərsiniz"** sualına V. Jirinovski belə cavab verib: "Mənim Azərbaycana və şəxsən tanış olduğum prezident İlham Əliyevə münasibətim gözəldir. Mən onun atası Heydər Əliyevi də yaxşı tanıyırdım. Dəfələrlə Rusiyadakı Azərbaycan diasporunun nümayəndələri ilə görüşmüşəm, sizin gözəl ölkənizə səfər etmişəm. Bir çox dövlətlərlə qarşılıqlı münasibətlərdə, xüsusilə qonşularla münasibətlərdə, sadəcə, hamını məmnun etmək mümkün deyil. Misal üçün, İsrail İranla çox pis münasibətlərə malikdir. Biz bu dövlətlərdən birini seçə bilmərik. Həm Tel-Əvivlə, həm də Tehranla yaxşı münasibətlərimizdən istifadə edib onların mövqelərini yaxınlaşdıra bilərik. Ermənistan və Azərbaycanla da vəziyyət bu cürdür. Bəli, sizin ölkələriniz arasında Dağlıq Qarabağa görə ağır mübahisə var. Lakin buna görə biz tərəflərdən biri ilə münasibətləri pozub yalnız digəri ilə münasibət qura bilmərik. Bundan əlavə, Rusiya qlobal nəhəngdir. Rusiya dünyanın bir sıra guşələrində təhlükəsizliyin təmin olunmasına cavabdehdir, hər şeydən əvvəl isə öz sərhədləri ətrafında təhlükəsizliyin təmin olunmasına cavabdehdir. Ən təhlükəli qeyri-stabil münaqişə ocaqlarından biri Yaxın Şərqdədir. Və bu münaqişə ocağı hər zaman şimala, Asiya və Cənubi Qafqaz ölkələrinə, hər şeydən öncə Ermənistan və Azərbaycana keçə bilər. Hər iki ölkə təhlükəsizliyin dəstəklənməsində vacib rol oynayır. Ona görə də Rusiyaya hər iki ölkə ilə konstruktiv münasibətlər lazımdır".

YENİ MÜSAVAT
N 151 (7040) 14 iyul 2018



# İşıq gələn tərəfə getməyin cəzası

Elşad PAŞASOY
epashasoy@yahoo.com

**Azərbaycan xalqı Mingəçevir və Gəncə sınağından da uğurla çıxdı. Necə ki, bu xalq 90-cı ildə, sovet tanklarının üstünə yumruğunu düyünləyib getmişdi, 2016-cı ilin aprel döyüşlərindən sonra birliyini nümayiş etdirib döyüşə hazır əsgərə çevrilmişdi, bu dəfə də nə təxribatçılara uymadı, nə terrordan çəkindi, nə də dövlətinə asi çıxdı.**

Diqqət edin, bir enerji blokunda baş verən müəmmalı qəzadan sonra nə qədər insan əzab-əziyyətlərlə üz-üzə qaldı. Hətta prezident hökumət üzvləri ilə keçirilən iclasda özü də vətəndaşın yanında dayanaraq, onun mövqeyindən çıxış edərək, sadə vətəndaşların əziyyət çəkdiyini məmurlara bir daha xatırlatdı. Amma bu əzab-əziyyətlər xalqı hövsələdən çıxartmadı, heç bir qüvvənin onu idarəolunmaz vəziyyətə gətirməyə gücü yetmədi. Çünki bu xalq "ellə gələn yas toy-bayramdır" deyimini də heç zaman unutmayıb.

Həm də axı ortada dövlət amili var. Azərbaycan xalqı bu dövlətin qurulması, bu bayrağın ucalması, imzamızın imzalar içərisində olması üçün nə qədər şəhid verib. İndi bu xalq elektrik enerjisinin kəsilməsinə görə küçəyə töküləsi, "qaranlıqda qara pişik axtarası" deyildi ki. Bir blokda baş verən qəzanı az sonra bərpa etmək olar, amma bir ölkənin çırağını bütün mənalarda söndürmək üçün çeşidli planlar quranları sevindirmək qəti şəkildə olmaz, bunu müdrik xalqımız gözəl anlayır!

Eləcə də Gəncədəki qanlı hadisələrdə nə Azərbaycan xalqı, nə Gəncənin qəhrəman insanları iştirak etmədilər. Araşdırmalardan görünür ki, baş verənlər Ermənistan xüsusi xidmət orqanlarına qədər uzanır. Deməli, burada olsa-olsa, xainlər ola bilər, onlarınsa nə dövlətimizə, nə də gözəl Gəncəmizə, keçmiş başkəndimizə qəti aidiyyəti yoxdur.

Qətlə yetirilən polis polkovniki İlqar Balakişiyevin son sözləri çox təsirlidir: "Gəncəlilər mənə əl qaldırmaz". Bu, polisin öz vətəndaşına, rəhbərlik etdiyi insanlara etimadının sübutudur. Təəssüf ki, Gəncəyə və Azərbaycana dəxli olmayan birisi əliyalın polis zabitini xəncərlə qətlə yetirdi o anda. Tarix boyu o qədər belə xəyanətlərlə üzləşənlərimiz, kürəyindən və ürəyindən xəncərlənənlərimiz olub ki. Dövlətimizin kürəyinə və ürəyinə saplanan xəncərlərin də sayı-hesabı bilinmir. Elə Cavad xanı tikə-parça edənlərin xələfləridir indi yenə də bu qədim şəhərimizi qarışdırmaq istəyənlər.

Məqsəd-məram birdir: Azərbaycanı sarsıtmaq, gözəl Vətənimizi növbəti dəfə piroq kimi dilimləmək, həzm-rabedən keçirmək. Niyəsini artıq əksəriyyət bilir. Azərbaycan "işıq gələn tərəfə" getmək istəyir. Elə buna görədir ki, onun işığını söndürürlər. Azərbaycan sivil dünyaya doğru yön alıb, odur ki, "din" pərdəsi altında cəhalət toxumu səpməyə, məzhəblərarası təfriqə salmağa, məmləkətimizi qana boyamağa çalışırlar. Təsəvvür edin, dini tolerantlıq mərkəzinə çevrilən ölkəmizdə din amilindən yararlanmaqla qan tökmək istəyirlər. Amma Azərbaycanı Suriyaya, Liviyaya çevirmək istəyənlərin ilk planı elə beşikdəcə boğuldu, təəssüf ki, iki polisimiz bu yolda şəhid oldu.

Amma dövlət başçısı bu yolda qurban gedən polislərimizə sahib çıxmaqla, onlara "Azərbaycan Bayrağı" ordeni ilə təltif etməklə bu dövlətin əmin əllərdə olduğunu, onu hədəfə almaq istəyənlərin cavabının veriləcəyini bir daha nümayiş etdirdi. Ölkə başçısı hüquq-mühafizə orqanlarının rəhbərləri ilə keçirdiyi toplantıda da kifayət qədər aydın dildə və qətiyyətlə Azərbaycana yol göstərmək, onun seçiminə mane olmaq istəyənlərə cavab verdi.

Ukrayna və Gürcüstan Avropa İttifaqı və NATO ilə əməkdaşlıq istiqamətində addımlar atarkən orada baş verənləri yada salın. Azərbaycanda baş verən qanlı hadisələr Avropa İttifaqı ilə sənədlərin paraflanması və prezidentin NATO səfəri ərəfəsində baş verdi. Bunlar sizə bir söz demirmi? Azərbaycan prezidenti Avropa İttifaqı ilə əməkdaşlıq üçün yeganə şərtini irəli sürmüşdü: Azərbaycanın ərazi bütövlüyünün müdafiə olunması. Qərbin ən iri təsisatları Qarabağı Azərbaycan torpağı olaraq tanıdığını bəyan elədi. Nədən bu qurumla əməkdaşlıq etməyək? Bu əməkdaşlıq isə dövlətimizi qaranlığa qərq etmək istəyənlərin marağında deyil. Əsr dəyişib, amma yenə də "atan kazaklardır"...

**Yay gələndə Bakıda insanların ən çox şikayətləndiyi sahələrdən biri də ictimai nəqliyyatdır. Belə ki, illərdir Bakıda fəaliyyət göstərən avtobuslarda kondisioner sisteminin olmaması müzakirə edilsə də, problem öz həllini tapmır. Bu gün Bakının mərkəzinə, kəndlərinə işləyən yüzlərlə avtobus 4 təkərli "saunanı" xatırladır. İsti yay günlərində tıxaclı yollarda sərnişinlər xeyli əziyyət çəkirlər.**



# Bakının 4 təkərli "hamamları": problem niyə həll olunmur?

## Ekspert: "Sürücü iş yerini itirməmək üçün kondisioneri qoşmur və bunun da əziyyətini vətəndaşlar çəkir"

"Yeni Müsavat"ın əməkdaşı ilə söhbətində sərnişinlər bildirdilər ki, istiyə görə gündüz saatlarında avtobusa minmirlər: "Xüsusilə də kəndlərə işləyən marşrut xətlərinin əksəriyyətində avtobus çatışmır. Məsələn, Ramana, Balaxanı istiqamətinə hərəkət edən avtobusların həm sayı azdır, həm də ölçüsü balacadır. Buna görə də hər gün pik saatlarda sıxlıq yaşanır. Avtobusda ayaq qoymağa yer olmur. Havalar qızanda isə ümumiyyətlə, nəfəs almaq xeyli çətinləşir. Dəfələrlə bu avtobuslarda yaşlıların, ürək problemi olan insanların halı pisləşib",-deyə söhbət etdiyimiz sərnişinlər bildirdilər. Sərnişinlər onu da söylədilər ki, kondisioner sistemi olan avtobuslarda belə, sürücülər sərinləşdirici sistemi işə salmırlar. Deyirlər ki, kondisioner işlədəndə, yanacaq çox gedir.

**Sürücülər isə söylədilər ki, yaxın zamanlarda bütün avtobuslar yeniləri ilə əvəzlənəcək. Onlar qeyd etdilər ki, sərinləşdiricisi olmayan avtobusları sürmək onlar üçün də çətindir:** "Heç olmasa, sərnişin minib, müəyyən məsafəni getdikdən sonra düşür. Biz isə 10-12 saat avtobusun içərisində bişirik. Təbii ki, bizim üçün də kondisionerli avtobusun olması sərfəlidir".

Bakı Nəqliyyat Agentliyi isə ötən il olduğu kimi yenə də açıqlama verib ki, onlar sözügedən problemin həllinə çalışırlar. BNA-dan verilən açıqlamaya görə, Bakıda 2100 avtobus var ki, onlardan 400 ədədində sərinləşdirici sistem mövcud deyil.

**"Yeni Müsavat"a danışan nəqliyyat üzrə ekspert İlqar Hüseynov isə söylədi ki, sürücülərə şirkətlər tərəfindən müəyyən şərtlər qoyulduğu üçün onlar kondisioneri işə salmırlar:** "Soyutma sistemləri avtobuslarda ayrıca bir motordur və bu motor işə düşən zaman yanacaq sərfiyyatını xeyli dərəcədə artırır. İritutumlu nəqliyyat vasitələrində kiçik həcmli maşınlarla müqayisədə daha çox yanacaq sərf olunur. Ona görə də şirkətlər maksimum çalışırlar ki, avtobuslarda kondisioneri işə salmayıb, yanacağa qənaət etsinlər. Şirkətlər sürücülərə tapşırıq verirlər ki, gün ərzində filan qədər yanacaq işlətməlisiniz. Artıq olarsa, maaşınızdan tutulacaq. Sürücü də iş yerini itirməmək üçün kondisioneri qoşmur və bunun da əziyyətini vətəndaşlar çəkirlər. Məsələ ilə bağlı vətəndaşlardan kifayət qədər şikayətlər var. Hazırda Bakıda "Bakubus" şirkətinin avtobuslarından başqa digərlərində kondisionerlər işləmir. Xüsusilə də problem Bakı ətrafına işləyən avtobuslarda daha ciddidir. Bəzi avtobuslar isə ümumiyyətlə, istismara yararsız vəziyyətdədir. Onlarda isə soyutma sistemləri işləmir. Halbuki avtobuslar texniki baxışdan keçirilməlidir və ildən-ilə yenilənməlidir. Şirkətlər öz avtobuslarını qışda qış, yayda isə yay rejiminə keçirməlidir. Hər bir şirkətin arxasında oliqarx-məmurlar dayanır və onlar əhalinin haqlı narazılıqlarını nəzərə almırlar. Burada korrupsiya və digər bu kimi faktorlar da böyük rol oynayır. Bütün sahələrdə olduğu kimi, bu sahədə də vətəndaşların hüquqları, mənafeləri tapdalanır. Buna qarşı heç şikayət edən də yoxdur".







**Ekspert bildirib ki, məsələ ilə bağlı vətəndaşların özləri də passivlik nümayiş etdirirlər:** "Vətəndaşların özləri də ictimai nəzarət mexanizminin necə qurulması, hüquqi proseduralarla bağlı hansısa bilgiyə malik deyillər, yaxud da qorxurlar. Avtobusla bağlı kollektiv şikayətlər olmalıdır. Bakı Nəqliyyat Agentliyi qarşısında məsələ qaldırılmalıdır. İllərdir ki, mətbuat bu məsələdən yazsa da, bunları dəyərləndirmirlər. Burada vətəndaşlara dəyən zərərlə bağlı kompensasiya tələbləri də olmalıdır. İnsanlar talelərinə biganə qalmalı deyillər. Əgər vətəndaşlarımız kütləvi şəkildə bunu etsələr, şirkətlərə cərimələr tətbiq olunsa, o zaman problem həllini tapar. Çünki şirkət görər ki, yanacağa qənaət etsə də, digər tərəfdən daha böyük məbləğdə cərimə, kompensasiya ödəyir".

**Avtobuslarda gediş haqqına gəlincə isə ekspert aşağıdakıları bildirib:** "Qiymət məsələsini Tarif Şurası müəyyənləşdirir. Şirkət özü müəyyənləşdirə bilmədiyi üçün bütün növ avtobuslarda qiymətlər eynidir. Tarif Şurası da qiyməti qoyan zaman kondisioner işlədilməsini, məsafəni və şirkətin də xeyrini hesabladıqdan sonra qiyməti müəyyənləşdirib. Sadəcə olaraq, şirkət rəhbərləri maksimum qənaət edib, daha çox qazanmaq istəyirlər".

❑ Əli RAİS,
Fotolar müəllifindir

YENİ MÜSAVAT
N 151 (7040) 14 iyul 2018

# "Onların kökünü birdəfəlik kəsmək lazımdır"

## Fərəc Quliyev: "O əldəqayırma saytlar dini radikal cərəyanların buradakı balalarına məxsusdur"

**Mingəçevirdə baş verən qəza və Gəncə şəhərində törədilən qanlı hadisələr ölkə gündəminin əsas müzakirə mövzusu olaraq qalmaqdadır. Bu dönəmdə diqqəti çəkən təhlükəli bir məqam da oldu. Azərbaycanın təhlükəsizliyini təhdid edənlər təkcə açıq şəkildə, odlu, yaxud soyuq silahla hücuma keçmədilər, eyni zamanda əllərindəki informasiya resursları, sosial şəbəkələrlə dövlətimizi sarsıtmağa, destruktiv qüvvələri hərəkətə gətirməyə, qanlı hadisələrin miqyasını genişləndirməyə çalışdılar.**

*Xarici ölkələrdən idarə olunan, Azərbaycanda vətəndaş qarşıdurmasını alovlandırmağa, milli, etnik, dini ayrıseçkiliyi təbliğ edərək mövcud tolerantlıq mühitini pozmağa çalışan saytlar, facebook səhifələrinin özü də təhlükə mənbəyi olaraq ortaya çıxdı ki, bunlar da araşdırılması zəruri olan istiqamətlərdəndir. Deputat, Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü, Milli Dirçəliş Hərəkatı Partiyasının sədri Fərəc Quliyev bununla bağlı "Yeni Müsavat"a müsahibə verib.*



***- Fərəc bəy, siz özünüz də feysbuk istifadəçisiniz, Azərbaycanda vətəndaş qarşıdurmasını alovlandırmağa çalışan qüvvələrlə bağlı müşahidələrinizi bölüşə bilərsinizmi? Onların haradan idarə olunduğu barədə qənaətiniz, bir məlumatınız varmı? Bu kontingentlə bağlı düşüncələriniz nədən ibarətdir?***

- Mən hesab edirəm ki, sizin sualınızın içində həm də bir cavab yatıb. Gerçəkdən də bu, özbaşına baş verən xaotik proses deyil. Bu, idarə olunan prosesdir və kifayət qədər institutlaşdırılmış, oturuşmuş bir mərkəzdən idarə olunur. Verilən bəyanatlar və çağırışlar burada daha çox Rusiya və İranın, daha çox da İranın maraqlarının olduğunu göstərir. Çünki yaxın zamanlarda Azərbaycanın enerji xətləri ilə bağlı ABŞ mətbuatında bir yazı çap olunmuşdu və bizim mətbuatda da dərc olunmuşdu. Azərbaycanın Avropa enerji təhlükəsizliyində iştirakı ilə bağlı olaraq Rusiya tərəfində çox ciddi narahatlıq var idi. Üstəlik də Azərbaycanın indi Avropa İttifaqı ilə yaxınlaşması, sazişin hazırlanması, Qərb dövlətləri ilə münasibətləri yaxınlaşdırması, İsrail və ABŞ-la son dərəcədə yaxşı münasibətləri İranın və Rusiyanın bu məsələlərdə maraqlarının olduğunu göstərir. Adamların özlərinin də çağırış elələrinə, sosial şəbəkələrdə aldıqları dəstəyin mənbələrinə nəzər yetirdikdə, yenə bu ehtimallar gündəmə gəlir. Bu, Azərbaycanın daxilində xaotik şəkildə və yaxud bir təşkilat tərəfindən yaradılmış məsələ deyil. Xarici kəşfiyyat idarələri tərəfindən və xarici dövlətlərin maraqlarına uyğun şəkildə planlaşdırılmış davranışlardır.

***- Belə qüvvələrlə necə mübarizə aparılmalıdır?***

- Hesab edirəm ki, çox ciddi şəkildə həm təxribatçı hərəkətlərə qarşı tədbirləri həyata keçirməklə yanaşı, həm də onları dəstəkləyən, Azərbaycan dövlətinin daxili işlərinə qarışmaq, həm də ölkəmizi qarışdırmaq istəyən belə qüvvələrə dəstək verənlərə qarşı - artıq açıq şəkildə dəstək verənlər var idi - ciddi şəkildə mübarizə aparmaq lazımdır. Bu, artıq müharibənin bir növüdür. Müasir dünyada top-tüfəngdən daha çox, belə üsullarla müharibə aparılır. Həm də bu, təkcə informasiya müharibəsi deyil. İflic etmək, cəmiyyəti gözdən salmaq, mənfi imic yaratmaq, görünməyən qüvvələrin işə salınması, təhdidlər, bütün bunlar var idi. Kimsə buna dəstək verirsə, terrorun yanındadır. Terrorçulara mənəvi və informasiya dəstəyi vermək eyni yüklü, ağırlıqlı məsələdir. Bəlkə də hələ informasiya dəstəyi və mənəvi dəstək vermək daha pis məsələdir. Dövlətlərin adını çəkmirlər, amma mən hesab edirəm ki, bu, açıq şəkildə görünür. Həmin adamlar Rusiya və İranda ya məşq keçiblər, ya onlara bağlıdırlar, ya ifrat çağırışlarında bu, hiss olunur. Amma onların İslama heç bir aidiyyəti yoxdur. Necə ki, başqa Şərq ölkələrində, ərəb dövlətlərində İslam adı altında İslamı nüfuzdan saldılar və İslam abidələrini dağıtdılar, burada da eyni davranış var. Həm İslamı gözdən salmaq var, həm də əhalisinin mütləq əksəriyyəti müsəlman olan Azərbaycanı qarışdırmaq meyli var. Bu, eyni ssenarinin müxtəlif formada tətbiq olunması cəhdidir. Mən tamamilə əminəm ki, bu, qəti şəkildə xaricdən idarə olunur.

Baş verən hadisələrə tam kəmfürsət yanaşmalar oldu. Azərbaycan bizim dövlətimizdir, ola bilər ki, burada ciddi şəkildə neqativlər, çatışmazlıqlar olsun. Siz özünüz də parlamentdə görürsünüz, mən bütün parlament çıxışlarımda da, müzakirələr zamanı da tənqidi yanaşıram. Heç kim tənqidlərlə bağlı bir söz demir. Amma baş vermiş bir hadisədən dərhal ölkəni nüfuzdan salmaq, ölkədə inamsızlıq yaratmaq - özü də müharibə apardığımız bir dövrdə - camaatla hakimiyyəti üz-üzə qoymaq, müxalifliyi artıq dövlətə qarşı müxalifliyə çevirmək, Azərbaycanı ayaq altına verməyə çalışmaq qəbulolunmazdır. Saytlardan birinin rəhbəri metroda problemlər yarananda su paylayırdı, bu, bir örnəkdir. Amma başqa bir sıra saytlarda Azərbaycanı gözdən salmaq üçün bir az da şişirdilmiş şəkildə informasiyalar yayırdılar.

***- Təfriqə salmaq istəyən bəzi saytlarla bağlı təxminləriniz, məlumatlarınız nədən ibarətdir? Siz həm də təhlükəsizlik komitəsinin üzvü olduğunuz üçün yəqin ki, məsələyə biganə deyilsiniz...***

- O əldəqayırma saytlar dini radikal cərəyanların buradakı balalarına məxsusdur. Mən həmişə demişəm ki, burada Rusiya ilə İranı ayırmıram. Milli Şuranı da Rusiyada yaradıb bura ötürmüşdülər. Onlar da ciddi şəkildə buna dəstək verdilər, son günlər bir az geri çəkilmələri hiss olunur. Bunlar da kəmfürsətlik edirlər. Yenə deyirəm, Azərbaycanda istənilən çatışmazlığı tənqid etmək, baş verən hadisələrə obyektiv yanaşmaq, çatışmazlıqları aradan qaldırmaq üçün təkliflər vermək lazımdır. Bu, başqa məsələ. Amma dərhal kəmfürsət kimi istifadə edib, cəmiyyətdə inamsızlıq, xaos yaratmağa cəhd etmək, bu, artıq Azərbaycan dövlətinə qarşı müxaliflikdir, hakimiyyətə qarşı yox.

***- Barəsində bəhs etdiyiniz informasiya resurslarının Azərbaycandakı radikal dindarlarla əlaqələri, yaxud onlara təsiri barədə danışmağa əsas varmı?***

- Təbii ki, var. Məsələn, mən İran və Rusiyanın adını çəkib tənqid edəndən sonra mənə qarşı belə sosial şəbəkələrdə təhdidlər yazdılar ki, "siz növbəti nələrəsə baxarsınız, filan". Hətta konkret adlarla, bilmirəm profil özlərinindir, ya saxtadır. İndi mən bunu şikayət xarakterli məsələ kimi demirəm, biz belə şeyləri çox görmüşük. Onlar başqalarına bunu edə bilərlər, belə üsullar bizə keçməz. Biz səngəri də gördük, məhbəsi də. Bundan sonra da hər məsələdə əsgər kimi dövlətimizin qulluğunda varıq. Yəni demək istəyirəm ki, əgər bu, varsa, təbii olaraq başqa vətənpərvər, türkçü insanlara, sizin kimi dövlət maraqlarını qoruyan jurnalistlərə də təhdidlər olacaq. Birdəfəlik onların kökünü kəsmək lazımdır. Səbəbləri aradan qaldırmasaq, tibbi dildə desək, simptomlara qarşı mübarizə aparsaq, pis nəticə verər. Ona görə də baş verənlərin səbəblərini, qaynaqları tapmaq lazımdır. Hansı dövlətlər bunun arxasında durursa, bu məsələlər sübut olunandan sonra onlara çox sərt şəkildə münasibət bildirmək, hətta münasibətlərə yenidən baxmaq lazımdır. Əgər bir ölkə sənin dövlət kimi silinməyində, xaosa sürüklənməyində maraqlıdırsa, sənin protokol qaydasında "mən səninlə qardaşam" deməyin heç bir mənası qalmır.

***- Fərəc bəy, milli təhlükəsizliyimizi təhdid edən informasiya resurslarının anti-Azərbaycan təbliğatı, sizcə, ölkəmizin ictimai rəyinə təsir edirmi?***

- Mən bir söz deyim. Siz bunu tərif kimi qəbul etməyin. Ən gərgin anlarda sizin kimi dostlar, millətə, dövlətə bağlı qüvvələr ortaya çıxır və sözlərini deyirlər. Adi hallarda siz belə məsələlərə çox da toxunmursunuz. Yeni Azərbaycanda böyük əksəriyyət millətinin, dövlətinin yanında olan və ona qarşı gələnlərin qarşısında dayanmağı bacaran kişilərdir. Biz millətimizə güvənirik, bu millət 1989-cu ildə "İlin xalqı" elan olunub, sərhədləri yandıran, əliyalın düşmənin üstünə getməyi bacaran bir xalqdır. Hesab edirəm ki, camaatı ruhdan salmaq olmaz. Amma ən ağır zərbəni "Troya atı"ilə, sapı özümüzdən olan baltalarla vura bilərlər. Ona görə də belələrinə "beşinci kolon" deyirlər. Bu "beşinci kolon"u, "Troya atlarını" təmizləmək üçün ölkədə kifayət qədər millətinə, dövlətinə bağlı olan qüvvələr var. Hətta hüquq-mühafizə orqanları olmasa belə, bu vətənpərvər insanlar öz evini qorumaq imkanına malikdirlər, heç kim heç nə edə bilməz.

***- Həmin resursların, onların arxasında dayanan qüvvələrin ifşa edilməsi üçün Azərbaycan mediası, sosial şəbəkə istifadəçilərinin, yaxud dövlətin üzərinə düşən vəzifələr, sizcə, nədən ibarət olmalıdır?***

- Dövlətin özü öz resursları ilə fəaliyyət göstərəcək və Azərbaycan təhlükəsizlik qüvvələri bu məsələlərdə normal mövqe tutacaqlar. Azərbaycan polisi qəhrəmanlıq edir, hüquq-mühafizə orqanları da yerindədir. Amma sizin kimi mövqedə olan qəzetlər, jurnallar, elektron KİV-lər və s. "Öncə Vətən!" çağırışı altında birgə fəaliyyət göstərməyi bacarmalıdır. Azərbaycana qarşı olanlar, başqa dövlətdən idarə olunanlar dərhal birləşib bir-birinə dəstək verirlər, heç bilmirlər məsələnin arxasında nə var. Amma çox təəssüflər olsun ki, dövləti qoruyan qüvvələrin belə məsələlərdə birlik nümayiş etdirməsini müşahidə etmirik. Bu, başqa məsələlərdə olmaya bilər, amma Vətən məsələsində artıq kimsənin hansı siyasi qütbdə olmasından, hansı düşüncənin daşıyıcısı olmasından asılı olmayaraq, birgə fəaliyyət göstərməsi, bir-birinə təmənnasız və müqaviləsiz, dərhal dəstək verməsi çox vacib məsələdir.

***- Bütün bunlar niyə məhz indiki situasiyada baş verdi? Ola bilərmi ki, Azərbaycanın Qərbə inteqrasiya istiqamətində növbəti addımlar atması məkrli qüvvələri hərəkətə gətirib?***

- Bunlar da əsasdır. Mingəçevir İstilik Elektrik Stansiyasında baş verənlər, yaxud Gəncədə baş verənlər təsadüf sayıla bilməz. Gəncə qapısı anlayışı var. Avtomobil yolu, dəmir yolu, neft-qaz xətləri bu bölgədən keçir. Bu bölgədən təhdid etməklə ölkəmizə mesaj vermək istəyirlər ki, "özünüzün enerji təhlükəsizliyinizi təmin edin, başqası ilə işiniz olmasın!" Həm İpək yolu, həm də karbohidrogen ehtiyatlarını nəql edən yollar konkret olaraq Rusiyanı narahat edir. Artıq İranın da təklənməsi, sanksiyalara məruz qalması faktdır. Onlar dura-dura regiondakı üstünlüklərin Azərbaycana keçməsini həzm edə bilmirlər. Bu məsələlərə daha çox strateji cəhətdən yanaşırlar. Məncə, Avropa dövlətləri də bunu başa düşür. Artıq Avropa İttifaqı ilə sazişlə bağlı dörd əsas təkliflər üzərində çalışmalar gedir. Orada daha çox pozucu yox, daha çox birləşdirici və əməkdaşlığa imkan yaradan yanaşmalarını ortaya qoyurlar. Başa düşürlər ki, Azərbaycan bu situasiyada tək qalmamalıdır. Azərbaycanın bu məsələlərdə xaricdəki düşmənləri ilə yanaşı, ciddi müttəfiqləri və dostları var. Ona görə də bu məsələlərə görə məyus olmağa dəyməz.

**E.PAŞASOY,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 151 (7040) 14 iyul 2018

# Putin Azərbaycanın dostu olan rus politoloqu yanından uzaqlaşdırdı

## Ölkəmizi müdafiə edən Maksim Şevçenko Prezident yanında Şuradan çıxarıldı; məşhur jurnalist erməni lobbisinin hədəfindəydi



**Rusiya prezidenti Vladimir Putin Millətlərarası Münasibətlər Şurasının tərkibinin dəyişdirilməsi haqqında əmr imzalayıb. Putin şuranın tərkibinə təhsil naziri Mixail Kotyukov, baş nazirin müavini Vitali Mutko və Rusiya Xalqlar Assambleyasının rəhbəri Svetlana Smirnovanı daxil edib. Əmrə əsasən şuradan baş nazirin keçmiş müavini Aleksandr Xloponin və jurnalist Maksim Şevçenko çıxarılıb. Onların şura üzvlüyündən çıxarılma səbəbləri açıqlanmayıb.**

Qeyd edək ki, bundan öncə Şevçenko Moskvada keçirilən mitinqlər zamanı kazakların etirazçılara hücumuna cavab olaraq Prezident yanında İnsan Haqları Şurasından çıxdığını elan etmişdi.

Sözügedən şuranın rəhbəri Putindir...

Şevçenko Rusiyada Azərbaycanın mövqeyini xüsusilə Qarabağ məsələsində müdafiə edən jurnalist və politoloq kimi tanınır. O, iki həftə əvvəl bir qrup rusiyalı politoloqlar, deputatlar və jurnalistlərlə birlikdə ölkəmizə səfər edib və cəbhə xəttində, Cocuq Mərcanlıda, Lələtəpədə olub, Azərbaycan əsgərləri ilə görüşüb, Qarabağın Azərbaycan ərazisi olduğunu və işğaldan azad edilməsinin vacibliyini açıq şəkildə dəfələrlə bəyan edib. Səsləndirdiyi bu cür fikirlərdən sonra Şevçenko Rusiyada ermənilər və erməni lobbisi tərəfindən təzyiqlərə məruz qalıb.

“Rossiya 1" telekanalında ”Vladimir Solovyovla axşam" siyasi tok-şousunda çıxış edən erməni əsilli hərbi-siyasi ekspert Semyon Baqdasarov Rusiya Dövlət Dumasının Liberal Demokrat Partiyasından olan deputatı, “Dağlıq Qarabağ Azərbaycan ərazisidir” deyən Dmitri Savelyevi və jurnalist Maksim Şevçenkonu Azərbaycanı müdafiə etdikləri üçün məhv etməyə çağırıb.

Baş verənlərdən az sonra Şevçenkonun Millətlərarası Münasibətlər Şurasının üzvlüyündən xaric edilməsində Qarabağ məsələsində Azərbaycanı müdafiə etməsi faktorunun da rol oynadığı müzakirə mözvusuna çevrilib. Siyasi təhlilçi, AMİP katibi Əli Orucov bu barədə “Yeni Müsavat”a şərhində bildirib ki, Şevçonkonu tənqidi fikirlərinə görə Rusiyada yaxşı tanıyırlar: “O, Rusiya prezidenti Yanında Millətlərarası Əlaqələr Şurasının üzvü ola-ola hakimiyyətin etniklərlə bağlı siyasətini hər zaman tənqid edib. Xüsusən də Rusiya telekanallarında Qafqaza dair qeyri-sağlam, vəhşi və sair kimi rəy formalaşdırılmasının qəti əleyhinə çıxıb. Şevçenko Rusiya hərbi təyyarəsinin Türkiyə tərəfindən vurulmasından sonra da barışçı mövqe sərgiləyib. Həmçinin Rusiyanın Türkiyədəki səfiri Andrey Karlovun həyatına qəsd ediləndə də sağlam mövqedən çıxış edib. Ən əsası o, Dağlıq Qarabağ probleminin həllində ədalətli mövqedədir və Rusiyanın Azərbaycanla əlaqələrinin daha da inkişaf etdirilməsinin tərəfdarı olub. Onun Azərbaycana cəbhə xəttinə səfəri və məlum açıqlamaları verməsindən az sonra şura üzvlüyündən xaric edilməsi suallar yaradıb. Burada erməni lobbisinin, Rusiya hökumətində kök atmış ermənilərin və ermənilərə dəstək verən şəxslərin apardıqları işin də təsiri ola bilər”.

**Ə.Orucov vurğuladı ki, Maksim Şevçenkonun şuradan kənarlaşdırılması Azərbaycan üçün itkidir:** “Burada yalnız erməni lobbisinin rolunu şişirtməzdim. Şevçenkonun siyasi baxışları və mövqeyi Putin hakimiyyətinin regional və millətlərarası siyasətinə uyğun gəlmirdi. Xüsusən də Kremlin Azərbaycanla və Şimali Qafqazla bağlı planları və siyasəti ilə Şevçenkonun mövqeyi toqquşurdu. Bu ciddi və kəskin ziddiyyətlər tanınmış jurnalistə Rusiya prezidenti yanında fəaliyyət göstərən Millətlərarası Münasibətlər Şurasının 47 üzvündən biri kimi fəaliyyətini davam etdirməsinə imkan vermədi. Erməni lobbisi də Maksim Şevçenkonun Kremlin gözündə düşmən obrazını yaratmaq istiqamətində çalışırdı. Məncə, Azərbaycan Maksim Şevşenkonun arxasında durub, ondan faydalanmalıdır. Çünki Şevçenko Rusiya ictimai rəyinin formalaşmasında təsiredici rola malik şəxsdir. Rusiya, onun ictimai rəyi ilə işləmək məsələsində görüləsi işlərimiz çoxdur. Oradakı tərəfdarlarımıza dəstək olmalıyıq. Onları qorumaqla yanaşı, Rusiyanın aparıcı ekspert dairələrində, ziyalı elitasında dost-tərəfdarlarımızın sayını artırmağa çalışmalıyıq”.

❑ **Etìbar SEYÌDAĞA,**
**“Yenì Müsavat”**

# Türkiyədə 15 iyul qiyamının ikinci ili - həbslər hələ də davam edir

## Hərbi çevriliş cəhdi günü nə baş verdi və sonrakı tarixdə nələr dəyişdi?

**Türkiyədə 15 iyul hərbi çevriliş cəhdinin iki ili tamam olur. 2016-cı il iyulun 15-də axşam Fətullah Gülən dini camaatının üzvləri olan hərbçilər və onlara dəstək verən bir qrup silahlı çevrilişə cəhd edib. Sonradan üzə çıxan faktlara əsasən, iyulun 16-da gecə saat 3-də planlaşdırılan hərbi çevriliş Milli Kəşfiyyat Təşkilatına gündüz hərbçilərdən birinin məlumat verməsi səbəbə ilə daha erkən baş verib. Türkiyə ordusundakı FETÖ üzvü zabitlərin və onları dəstəkləyən şəxslərin qurduğu “Yurdda Sülh Şurası” adlı qurum çevrilişi həyata keçirib.**

Həmin vaxt ölkə prezidenti Rəcəb Tayyib Ərdoğan Marmaris bölgəsində istirahətdə idi. Sonradan açıqlanan məlumatlara əsasən, saat 20 radələrində iki hərbi desant vertolyotu Marmarisdəki prezidentin qaldığı hotelə hücum etsə də, bu zaman artıq Ərdoğan oradan çıxarılıb və oteldəki mühafizəçilərlə hərbçilər arasında atışma baş verib. Ərdoğan özü isə CNN-Türk televiziyasına canlı telefon bağlantısı ilə qoşularaq baş verənlərin qiyam cəhdi olduğunu, Türkiyə ordusunun bütün komandanlığının bu hadisədə iştirak etmədiyini bəyan edib. Eyni zamanda xalqı küçələrə çağıraraq hərbi xunta qurmaq istəyənlərə qarşı səfərbərliyə çağırıb. Ərdoğan xalqı meydanlara, əsas dövlət qurumlarının qarşısına, hava limanlarına çağırıb. Eyni zamanda Diyanət İşləri Başqanlığının əmri ilə məscidlərdə Səlah oxunaraq insanlar meydanlara çağırılıb.



Saat 1-də isə İstanbul Küçükçekməcə Respublika Prokurorluğu Türkiyə Cinayət Məcəlləsinin 309, 311, 312 və 313-cü maddələri ilə cinayət işi açıldığı və qiyama qoşulanlar barədə həbsi qərarı verildiyi elan olunub.

Saat 2 radələrində qiyamçı hərbçilərin idarə etdiyi qırıcılar Ankara Polis İdarəsini bombaladı. Saat 2-də isə orduya məxsus qırıcılar qiyamçılara məxsus iki vertolyotu vurub saldı. Ankarada həmin əsnada Gölbaşı rayonundakı polis xüsusi təyinatlıları mərkəzi, Kommunikasiya idarəsi, Baş Nazirin Aparatının yerləşdiyi Çankaya sarayına qiyamçıların hücumları baş verdi və toqquşmalar qeydə alındı.

Həmin saatlarda Türkiyə parlamentində deputatların iştirakı ilə toplantı keçirildi və ümumilikdə gecə ərzində parlament binası 4 dəfə qiyamçı pilotlar tərəfindən bombalandı. Gecə saat 3-də isə qiyamçı təyyarələri alçaqdan uçuşlar həyata keçirərək əhalidə xof yaratmağa çalışsa da, meydanlara toplanma baş verdi. Eyni saatlarda qiyamçılar “Türksat” şirkətinin Gölbaşındakı mərkəzini bombaladı, eləcə də CNN-Türk kanalı hərbçilər tərəfindən ələ keçirilərək telekanalın yayını dayandırıldı, “Hürriyet” qəzetinin çapı dayandırıldı. Ankara Beştəpədə Prezident Sarayına hücumun qarşısı alındı.

Sabah saat 4-də prezident Rəcəb Tayyib Ərdoğan sərnişin təyyarəsi ilə İstanbula eniş edib və ilk dəfə xalqın qarşısına çıxaraq nitq söyləyib. Saat 5-də isə İstanbul Bakırköy və Ankara prokurorluqları çevriliş maddəsi ilə cinayət işi açaraq qiyamçı zabitlərin yaxalanması əmrini imzaladı. Sabah 7 radələrində İstanbul bələdiyyə idarəsində və Boğaziçi körpüsündə müqavimət göstərən 50 nəfərlik hərbçi qrup yaxalanaraq ələ keçirildi. Ümumi olaraq İstanbuldakı toqquşmalarda 17 hərbçi həlak oldu. 15 iyul hadisələri zamanı 248 nəfər öldürülüb, 2196 nəfər isə yaralanıb.

Ümumilikdə sabah saat 7-də ölkədə vəziyyət nəzarət altına alınsa da, qiyamçı hərbçilərin tamamilə zərərsizləşdirilməsi gün boyu davam etdi. Bundan sonrakı günlərdə də hərbçilərin hərbi hissələrdən çıxması yasaqlandı və hökumət qiyamda iştirak edən və buna hər hansı formada dəstək verənlər barədə cinayət işi başlatdı. Həbslər həm ölkə daxilində, həm də Ankaranın “əli çatan” ölkələrdə davam etdi. Proses bu gün də davam edir.

Ən son olaraq iki gün əvvəl İstanbul körpüsünün ələ keçirilməsi ilə əlaqədar cinayət işi üzrə 72 nəfər ömürlük həbs cəzasına məhkum olunub. Məhkum olunan şəxslər iyul hadisələri zamanı İstanbulda körpü üzərində 34 vətəndaşın qətlində təqsirli biliniblər. Daha 27 nəfər qeyd olunan iş çərçivəsində 15 il müddətinə məhkum olunublar, 44 nəfərə bəraət verilib.

15 iyul hərbi çevriliş cəhdi Türkiyədə böyük dəyişikliyə səbəb olub. Hökumət bir sıra ordu qurumlarını, o cümlədən Hərbi Tibbi Akademiyanı, hərbi məktəbləri mülkiləşdirib. Ordu üzərində siyasi nəzarəti artırıb. Hətta bu günlərdə prezident Ərdoğanın əmri ilə Türkiyənin sabiq baş qərargah rəisi, ordu generalı Hulusi Akar müdafiə naziri təyin olunub. Bəzi məlumatlara görə, hakimiyyət Baş Qərargahı Müdafiə Nazirliyinə tabe olan bir quruma çevirməyi düşünür.

**Politoloq Toğrul İsmayıl Baş Qərargahın Müdafiə Nazirliyinə tabe etdiriləcəyini güman etmir. Ekspertin fikrincə, hazırda buna ehtiyac yoxdur:** “Dünyada qayda belədir ki, müdafiə naziri mülki şəxs olur, Baş Qərargah rəisi isə sırf hərbi qurumdur. Bunların birləşdirilməsi mümkün deyil. Üstəlik, bu söhbətlərin də mənası qalmadı, indi həm müdafiə naziri, həm də Baş Qərargah rəisini prezident təyin edir”.

**Eyni zamanda ekspert deyir ki, son illərdə bir çox sahələrdə nəzarət rəhbərlik hərbçilərdən mülki idarəçiliyə keçib. 15 iyul prosesi isə paralel olaraq davam edir. T.İsmayılın fikrincə, FETÖ güclü bir şəbəkə olduğu üçün onun ifşası da uzun bir proses olacaq:** “Proses davam edir. Məhkəmələr keçirilir. FETÖ ciddi bir təşkilatdır, xaricdə çox güclüdür, təşkilatın əsas rəhbərləri xaricdədir, bir qismi də çevrilişdən sonra qaçdı. Aysberqin hələ görünməyən hissəsi ölkədə qalır. Çox məqamlar hələ tam aydınlaşmış deyil, əməliyyat davam edir. Çünki uzun illər çox gizli və yaxşı işləyərək bütün kilit nöqtələrə öz adamlarını yerləşdiriblər, onların təmizlənməsi davam edir”.

**T.İsmayıl deyir ki, FETÖ-nün ifşasının bu qədər uzun və çətin keçməsinin əsas səbəblərindən biri də onun dini camaat olmasıdır:** “Problemin əsas çətin tərəflərindən biri də bu təşkilatın xalqın inancından, yəni islami dəyərlərdən istifadə etməsidir. Prezident seçkilərindən sonra qərarnamə ilə 10 mindən çox insan dövlət qurumlarından uzaqlaşdırılıb. Hələ bir çox məhkəmələr davam edir”.

❑ **Kənan RÖVŞƏNOĞLU,**
**“Yenì Müsavat”**

Yeni Müsavat
N 151 (7040) 14 iyul 2018

# Bakıda gələn il yeni metrostansiya açılacaq

## Metropolitendə minimal enerji təminatını ödəyəcək dizel-generator stansiyası da tikilir

**"2011-ci ilin mart ayında prezident İlham Əliyevin sərəncamı ilə "Bakı Metropoliteni" Xətlərinin Konseptual İnkişaf Sxemi inkişaf sistemi" təsdiq edilib. Həmin sxemdə göstərilən stansiyalar mərhələlərlə inşa olunacaq. Bakı şəhərinin perspektiv inkişaf planına əsasən, 2035-ci ilə qədər metropolitenin 5 xətt üzrə 76 stansiyası olacaq". Bunu "Yeni Müsavat"a "Bakı Metropoliteni" QSC-nin mətbuat xidmətinin rəhbəri Bəxtiyar Məmmədov deyib.**



Onun sözlərinə görə, hazırda metropolitenin 3 xətti üzrə 25 stansiyası mövcuddur. 26-cı stansiya da tikilir: "Bu stansiyaların perspektiv inkişaf sxeminə uyğun hazırlanması üçün dövlət başçısının 2008-ci ildə imzaladığı sərəncam əsasında konsorsium yaradılıb. Konsorsium perspektiv inkişaf sxemi üzərində müxtəlif layihələr hazırlamışdı. Bakıda əhalinin artımı və bir neçə aspektdən araşdırma aparılıb, vəziyyət öyrənilib, ondan sonra ən optimal variant kimi hazırkı sxem hazırlanıb. Düşünürəm ki, bu sxem tamamlanarsa, şəhərimiz üçün çox faydalı olacaq. Ən yaxın müddətə təhvil veriləcək stansiya Bənövşəyi xəttin şərti adı "B-3" olan stansiyasıdır. Avtovağzal, Memar Əcəmi stansiyasından sonrakı olacaq. Həmin xətt üzrə üçüncü stansiya olacaq. Avtovağzal və Memar Əcəmidə olduğu kimi bu stansiya da 7 vaqonluq olacaq. Hazırda stansiyada tikinti işləri gedir. Qatarlar bu stansiyaya daxil olub, onun arxası ilə dönüb əks istiqamətə geri qayıtmaq imkanı olacaq. Stansiyanın tikintisinin 2019-cu ilin sonu, 2020-ci ilin əvvəlinə yekunlaşması planlaşdırılır".

**B.Məmmədov onu da bildirir ki, Bənövşəyi xəttin 3-cü stansiyası ilə yanaşı, tikinti ərazisində gücü 16 MVA olan dizel-generator stansiyasının inşası da aparılır:** "Bu dizel-generator stansiyası qatarların tunellərdən stansiyaya çıxarılmasını, stansiya, tunel və vaqonların işıqlandırılmasını, ventilyatorların, eskalator, lift və travolatorların, bütün su xaric qurğularının, bir sözlə, yeni xəttin ilk 3 stansiyasının infrastrukturunun tələb olunan minimal enerji təminatını ödəyəcək. Ümumiyyətlə, layihəyə uyğun olaraq, bu xətt üzrə inşa olunacaq 12 stansiyanı qidalandıran 35 kV-luq yarımstansiyada qurulacaq iki dizel-generator stansiyası xəttin elektrik təchizatı ilə bağlı hər bir fövqəladə ehtiyaclarını təmin edəcək. Gələcəkdə tikiləcək bütün yeni xətlərdə də, eyni qaydada ilə, ehtiyat enerji qida mənbələri olacaq. Onu qeyd etmək kifayətdir ki, metropolitenin elektrotexniki avadanlıq və qurğuları müxtəlif gücə malik 220 transformatorla təmin edilir və bu da aylıq 12 milyon kV/saat təşkil edir. Əlbəttə, elmi-texniki tərəqqinin sürətlə inkişaf etdiyi bir dövrdə həlli mümkün olmayan məsələ yoxdur. Məsələnin bir neçə həll istiqaməti var. Ölkənin və paytaxtın elektrik enerjisi ilə təchizatı sistemi ilə bağlı dövlət siyasətini həyata keçirən bu sənaye sahəsini aparıcı qurumlarla sıx əməkdaşlıq, qarşılıqlı fikir mübadiləsi və müzakirələr şəraitində qarşıya qoyulmuş vəzifələrin həlli ilə bağlı təkliflər hazırlanacaq. Artıq "Bakı Metropoliteni" QSC-də bununla əlaqədar mühüm işlərin görülməsinə, bütün ehtiyacları nəzərə alan təkliflərin müzakirəyə çıxarılması istiqamətində işlərə başlanılıb".

**❑ Ləman MUSTAFAQIZI,**
**"Yeni Müsavat"**

# Bakının məşhur restoranında dava düşdü

## Ərəbə görə müştəriyə yer vermədilər...

**Məlum məsələdir ki, son bir neçə ildə onlarla restoran "ərəbləşdi", məhz ərəb musiqisi, mətbəxi ilə ölkəmizə turist kimi gələn ərəblərə xidmət göstərməyə başladılar. İndi isə mərkəzdə yerləşən bəzi iaşə obyektləri yerli müştərilərə xidmət göstərmək istəmir.**




Minval.info redaksiyasına müraciət edən Fərəc Eyvazov da bir restoranda məhz azərbaycanlı olduğu üçün özünə yer tapa bilmədiyini bildirib. Onun sözlərinə görə, 11 iyul günü İngiltərə-Xorvatiya matçını izləmək üçün Nizami küçəsində yerləşən "Kolorit" kafesinə üz tutub.

Bütün masalar dolu olduğu üçün bir qədər gözləyib. Daha sonra bir masa ətrafında əyləşənlər durub gediblər, masa boş qalıb. Fərəc masanın tamamilə boşaldığına əmin olmaq üçün bir az da gözlədikdən sonra əyləşmək üçün yaxınlaşıb. Ancaq bu zaman restoranın ofisiantları Fərəcə mane olublar: "Mənə dedilər ki, bu masa doludur. Soruşuram ki, bəs niyə "reserved" yarlığı qoymamısınız? Bundan sonra məni küçə davasına çağırdılar. Restoranın məsul şəxsi deyir ki, "Sən bilirsən, mən kiməm". Məni qorxutmağa çalışdılar. "Sizi məhkəməyə verəcəyəm" dedikdə, mənə nalayiq sözlər deməyə başladılar. Mən hələ bu qədər biabırçılıq görməmişdim".

Şikayətçi iddia edir ki, bu yerləri ərəblər üçün saxlayırlar, çünki hər kəsə bəllidir ki, onlar daha çox yemək sifariş edir, restorana daha çox xeyir verirlər.

**İddialarla bağlı sayt əməkdaşı "Kolorit" kafesi ilə əlaqə saxlayıb. Kafenin Nizami filialının meneceri Elşad adlı şəxs bildirib ki, həmin günlər kafedə sıxlıq olur, masa bron edənlərin sayı çox, ona görə də belə çaşqınlıq yaranmış ola bilər:** "Futbol üzrə dünya çempionatının oyunları olan günlərdə həddindən çox rezerv alırıq. Bəzən elə olur ki, masa arxasına əyləşmək üçün uzun növbələr yaranır. Ola bilsin, müştəri masadan qalxdıqdan sonra hələ "rezerved" yazılı lövhəni yerləşdirənə qədər digər müştəri əyləşmək istəyib. Ona görə də belə anlaşılmazlıq yaşanıb. Dava məsələsinə gəldikdə isə, bizim əməkdaşlar heç vaxt belə addım ata bilməzlər. Axı özümüz də daim nəzarət edirik".

Yəni kafedən iddia edilib ki, yer ehtiyat saxlanılıb, sadəcə, bunu göstərən lövhə qoyulmayıb, şikayətçi isə bildirir ki, rezerv olduğunu göstərməyiblərsə, əyləşə bilər. Bəs bu halda tərəflərdən hansı haqlıdır?

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov bildirib ki, rezerv olduğu göstərilməsə belə, restoranın müştəriyə yerini dəyişməyi xahiş etməyə tam haqqı çatır:** "Restoranın əməkdaşları müştəriyə həmin masanın bron edildiyini deyərək, başqa masaya keçməsini istəyə bilər. Bu zaman müştəri seçim etməlidir, ya başqa masaya keçəcək, ya da məkanı tərk edə bilər".

**Müştərinin davaya çağırılması məsələsi barədə isə E.Hüseynov söyləyib ki, müştəriyə qarşı zorakılıq halları artıq adiləşib:** "Azərbaycan restoranlarında bu kimi böyük bir problem yaşanır. Hətta insanların üzünə baxıb buraxmırlar. Əgər bir təzyiq, xəsər yetirmə olubsa, müştəri buna görə mütləq lazımi yerlərə şikayət etməlidir".




## Xəstəxanaların generatorlaşdırılmasına başlanıb

### Prezidentin iradından sonra müalicə ocaqlarının rəhbərləri hərəkətlənib

**Prezident İlham Əliyevin işıq müşavirəsində səhiyyə naziri Oqtay Şirəliyevə irad tutduğu haqda məlumat verilib. Nazir bütün xəstəxanalarda generator sistemləri quraşdırıldığını demişdi. Prezident isə bunun həqiqətə uyğun olmadığını bildirmişdi.**

"Məndə olan məlumata görə, bəzi xəstəxanalarda generatorlar işləməyib, ya olmayıb, ya qoşulmayıb, ya da ki, işlək vəziyyətdə olmayıb. Ona görə siz gərək ciddi təftiş aparasınız, bütün ölkə üzrə xəstəxanalarda generatorların mövcudluğu və onların işlək vəziyyətdə olması haqqında həm komissiyaya, həm də mənə məruzə etməlisiniz", - deyə ölkə başçısı uradını bildirmişdi.

Prezidentin həmin göstərişindən 10 gün keçir. Maraqlıdır, Səhiyyə Nazirliyi bu istiqamətlər hansı işlər görüb? Generatoru olmayan xəstəxanalar generatorla təchiz olunubmu?

**Səhiyyə Nazirliyinin mətbuat xidmətinin əməkdaşı Səfayə Əhmədova "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, yeni generatorlar alınır:** "Ölkənin enerji sistemində qəza baş verən zaman səhiyyənin həyati əhəmiyyətli, yəni reanimasiyası, süni nəfəs aparatı olan tibb müəssisələrində generatorlar quraşdırılmışdı. O müəssisələrdəki araşdırma zamanı neqativ hallar aşkarlanıb, hazırda generatoru olmayan müəssisələrin təchizatı ilə məşğul olunur. Bunu bir günün içində etmək mümkün deyil. Generatorlar alınır və yerləşdirilir".

**S.Əhmədova sosial şəbəkələrdə yayılan xəstəxanalarda həkimlərdən generator almaq üçün pul yığılır məsələsinə də münasibət bildirdi:** "Tibb müəssisələrində həkimlərdən 1 manat da pul yığılmayıb. Belə bir göstəriş verilməyib, verilə də bilməz. Haradasa belə bir hal olubsa, xahiş edirik, Səhiyyə Nazirliyinə müraciət etsinlər. Amma ünvanlı şəkildə, konkret ad çəksinlər ki, biz də dərhal araşdıraq".

**❑ Ləman MUSTAFAQIZI,**
**"Yeni Müsavat"**



## Bu gündən daha bir marşrut kartla işləyəcək

**Bakı Nəqliyyat Agentliyinin (BNA) göstərişinə əsasən daha bir marşrut xətti üzrə gediş haqqının ödənişi "BakıKart" vasitəsilə həyata keçiriləcək.**

BNA-dan virtualaz.org-a verilən məlumata görə, iyulun 14-dən 199 nömrəli müntəzəm marşrut xətti üzrə (Xətai prospekti - Bakı Mühəndislik Universiteti) hərəkət edən avtobuslarda nağdsız ödəniş sistemi tətbiq ediləcək. Gediş haqlarının "BakıKart" vasitəsilə ödənilməsini təmin etmək üçün "Xaliq Faiqoğlu" şirkəti tərəfindən xəttə texniki baxımdan saz vəziyyətdə olan və validatorla təchiz edilən nəqliyyat vasitələri buraxılacaq.

199 nömrəli marşrut xəttinin hərəkət sxeminə uyğun dayanacaqlarda ödəmə terminallarının qoyulması ilə bağlı zəruri tədbirlər görülür. Bununla da nağdsız ödəniş sistemi ilə çalışan marşrut xətlərinin sayı 23-ə çatmış olur.

YENİ MÜSAVAT
N 151 (7040) 14 iyul 2018

# Şadlıq evlərinin yay menyusu: təhlükəli qidalar ixtisar edilirmi?

**Məlum olduğu kimi, zəhərlənmələr daha çox yay mövsümündə baş verir. Bunun da əsas səbəbi kimi qidaların tərkibində olan kimyəvi, süni qatqılar göstərilir. Həmçinin bəzi tez xarab olana qidalar var ki, onlar yay mövsümündə təhlükəli ola bilir.**

## Həkim: "Nəinki yayda, qışda da verilən yeməklərin keyfiyyəti problemlidir"



Onlardan ət və süd məhsulları, quş əti, pomidor, kolbasa, sosiska, dondurma, mayonez və souslu yeməklər, kremli tortlar, bir müddət quruda qalmış dəniz məhsulları, yumurta və sairə daxildir. Bəzən bu qidalardan düzgün istifadə olunmadıqda zəhərlənmələr baş verə bilir. Bunun üçün də yay mövsümündə əsasən yüngül, tez həzm olunan qidalara üstünlük verilməsi tövsiyə olunur. Həkimlər yayda balıq yeməklərindən uzaq durmağı məsləhət görürlər. Belə ki, tərkibi sink, zülalla zəngin bu qida yayda qəbul edildikdə gec həzm olunur və bu maddələr mədədə çox qaldıqda zəhərlənmə ilə nəticələnir.

Vətəndaşlar çox zaman bu tövsiyələr barəsində məlumatlı olurlar və mümkün qədər əməl etməyə çalışırlar. Bəs restoranlarda, şadlıq evlərində necə?

Bu məqamda bir faktı da qeyd edək ki, bu cür iaşə obyektlərində stolda mütləq şəkildə salatlar olur. Həmin salatların tərkibində yuxarıda qeyd etdiyimiz tez xarab olan məhsullardan istifadə olunur. Beləliklə, isti yay mövsümü başlayandan restoran və şadlıq evlərində menyularda hansısa ixtisarlar, dəyişikliklər edilibmi?

**Mövzu ilə bağlı "Yeni Müsavat"ın əməkdaşı kimi bir sıra şadlıq sarayı və restoranların mövqeyini öyrənməyə çalışdıq. "Neptun" şadlıq sarayının administratoru Akif Musayev qeyd etdi ki, yay mövsümü başlayandan artıq menyuda bir sıra dəyişikliklər edilib:** "Qida rasionunda balıq, mayonez, bir sıra salatları azaltmışıq. Yay mövsümü ilə əlaqədar olaraq menyuda istər-istəməz dəyişiklik etməli oluruq. Çünki bildiyiniz kimi, bəzi qidalar var ki, yay mövsümündə zəhərlənmələrə səbəb ola bilir. Məclis sahiblərinin də razılığı ilə bu məsələni nəzərə alırıq. Həmçinin qidaların gündəlik olaraq yeni olmasına diqqət edirik. Qidalar soyuduculardan saat 4-5 arası çıxarılır, hazırlanır, sonra süfrəyə verilir. Bu günlərdə elektrik enerjisi ilə bağlı yaranmış problem zamanı şadlıq sarayımız heç bir problem yaşamadı. Çünki generatorumuz var. Bunun üçün də soyuducular fasiləsiz işlədi və problem yaranmadı".

**"Çıraq plaza" şadlıq sarayının administratoru Akif İsmayılov isə menyuda heç bir dəyişiklik edilmədiyini dedi:** "Dəyişiklik yoxdur. Sadəcə, toy sahibi gəlib yeməklərin və salatların necə hazırlanmasına nəzarət edir, onun iştirakı ilə menyudakı yeməklər bişirilir. Bəzi salatlar var ki, mənələn, manqal salatı toy sahibinin istəyi ilə menyuya əlavə edilə bilir".

**"Qızıl qaya" restoranının Azər adlı administratoru isə bildirdi ki, yay mövsümü ilə əlaqədar menyudan bəzi qidalar çıxarılıb:** "Artıq bəzi məhsulları və salatları qida rasionundan çıxartmışıq. Menyudan çıxartdığımız salatların yerinə manqal, toyuq, "şahin" salatını əlavə etmişik. Bu günlərdə yaşanan elektrik problemindən restoranımız üzüağ çıxdı. Belə ki, daim restoranda generator var ki, elektrik enerjisi kəsildiyi anda işə düşür. Bunun üçün soyuducuların çalışmasında heç bir fasilə yaranmadı, qidalarımıza zərər dəymədi".

**Məsələ ilə bağlı həkim Vaqif Qarayevin də rəyini öyrənməyə çalışdıq. V.Qarayev qeyd etdi ki, yay mövsümü ilə əlaqədar menyuda dəyişiklik etməyin mənası yoxdur:** "Sadəcə, bu cür iaşə obyektlərində süfrəyə verilən yeməklər təzə olmalıdır. Bu, mütləqdir. Tutaq ki, salatların verilməsində bir problem yoxdur, sadəcə, salatda istifadə edilən qidalar təzə olmalıdır. Biz müşahidə edirik ki, şadlıq sarayları, restoranlarda süfrədə olan salatlar və digər yeməklərin yarıdan çoxu əl dəyməmiş qalır. İnanıram ki, səhəri gün biz yenidən o restorana getdikdə həmin yeməkləri yenidən stolun üstündə görə bilərik. Bu çox təhlükəlidir. Xüsusən də süd məhsulları və ondan hazırlanmış salatlar, həmçinin ət məhsullarından hazırlanan yeməklər təhlükəli ola bilir. Bu mənada nəinki yay, hətta qış mövsümündə də restoranlarda verilən yeməklərin keyfiyyəti problemlidir. Xoşuma gələn bir məqam var ki, artıq insanlar süfrədə olan bir çox yeməklərə əl vurmurlar, bilirlər ki, həmin yemək və ya salatlar köhnədir. Lakin bu belə olmamalıdır axı. Lüks restoran və ya şadlıq evlərində yaxşı keyfiyyətli çörək görə bilirik. Lakin bir qədər ucuz iaşə obyektlərində keyfiyyətsiz çörəklərin süfrəyə verildiyinin şahidi oluruq. Bu məsələlərlə bağlı ciddi məşğul olmaq lazımdır. Bəzən mətbuatda eşidirik ki, hansısa restoranda zəhərlənmə olub. Bu olmamalıdır. Hər bir restoran və ya şadlıq saraylarında çalışan aşpazlar peşəkar olmalıdır. Süfrəyə normal qida, yemək verilməlidir. Bu məsələyə yetərli diqqət olmayınca, problem həll olunmamış qalacaq".

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**

# Yeni gətirilən meyvə sortları: üstünlüyü yerli məhsula verək, yoxsa...

## Sahibkarlar "dadı meyvəyə torpaq, iqlim verir" deyir



**Azərbaycanda meyvə-tərəvəzin istehsalı və ixracı sürətlə artır. Xüsusilə son 2 ildə bu məhsulların ölkədən kənara ixracında qeydə alınan böyük artım diqqəti cəlb edir.**

Dövlət Gömrük Komitəsinin məlumatına görə, 2017-ci ildə Azərbaycandan meyvə-tərəvəz ixracı 548 min 998 ton təşkil edib. Bundan ölkəyə 502,8 milyon dollar vəsait daxil olub. Bu ilin altı ayında isə ölkədən xaricə ixrac olunan meyvə-tərəvəzin həcmi 299 min 677 ton təşkil edib ki, bundan əldə olunan gəlir 276,7 milyon dollara bərabər olub.

Meyvə-tərəvəzin idxalına gəlincə, 2017-ci ildə bu göstərici 280 min tondan azca yüksək olub, ona xərclənən vəsait isə 132,3 milyon dollar təşkil edib. Bu ilin altı ayında Azərbaycana 166 min 830 ton meyvə-tərəvəz gətirilib ki, buna da 89,3 milyon dollar xərc çəkilib.

Hazırda ölkənin qeyri-neft ixracında əsas yeri məhz meyvə-tərəvəz tutur. Bu məhsulların ixracında yaranmış əlverişli şərtlər getdikcə daha çox sayda sahibkarın meyvə-tərəvəz istehsalına yönlənməsinə gətirib çıxarır. Sahibkarlar xarici ölkələrdən çoxsaylı meyvə-tərəvəz sortları gətirirlər. Bu sortlar yerli sortlardan məhsuldarlığı, eləcə də xəstəliklərə davamlılığı ilə seçilir. Amma maraqlıdır ki, yerli əhali bir çox hallarda yeni gətirilən meyvə-tərəvəz sortlarının dadını bəyənmir. İnsanlar tez-tez köhnə sortların daha dadlı olduğunu bildirir, onların sıradan çıxacağından ehtiyatlanırlar.

**Azərbaycan Meyvə-Tərəvəz İstehsalçıları və İxracatçıları Assosiasiyasının rəhbəri Bəşir Quliyev bu mövqe ilə razılaşmır. Onun dediyinə görə, sahibkarların daha məhsuldar, xarici görünüşcə cəlbedici, xəstəliklərə daha davamlı sortların axtarışında olması təbii və həm də lazımlı prosesdir:** "Yeni gətirilənlər də mədəni sortlardır, meşə sortları deyil ki. Bu gün bizim ənənəvi adlandırdığımız sortlar 60-70-ci illərdə sovet elmi institutları, alimləri tərəfindən yetişdirilən sortlardır. Onları ilkin olaraq sovxoz-kolxozların bağlarında əkirdilər, sonralar həyətlərə də gedib çıxdı. İndi də sahibkarların yeni sortlar gətirib yetişdirməsində heç bir problem yoxdur. Deyirlər, Azərbaycanın ənənəvi pomidor sortları... Bakı pomidoru deyilən "Durento" 1972-ci ildə Hollandiyanın "Royal Fitch" şirkəti tərəfindən yaradılıb, 1990-cı illərdə Bakıya gətirilib. Belə götürdükdə, pomidor, ümumiyyətlə, Azərbaycanın yerli bitkisi deyil, Amerikadan gətirilmədir"

**Assosiasiya rəhbəri deyir ki, meyvəni dadlı edən torpaq və təbii-iqlim şərtləridir:** "Hər hansı sortu gətirib yetişdirsək, Azərbaycanın torpağı, təbii-iqlim şəraitinə uyğunlaşacaq, dadlı olacaq. Digər tərəfdən, sahibkara, biznesmenə demək olmaz ki, yeni sortlar axtarma, gətirmə. Sahibkarların da gətirdiyi hər sort özünü tutmur axı. Hansı dadlı, məhsuldar olursa, o da özünə bazar tapır. Hazırda böyük sürətlə yeni meyvə-tərəvəz bağları, sahələri salınır. Bu istiqamətdə böyük işlər görülür. Bunu isə ancaq ki, təqdir etmək lazımdır".

**İş adamı, Azərbaycanda ilk dəfə faraş meyvə bağı salan Mürvət Həsənli bildirir ki, bir neçə sort meyvəni istilikxana şəraitində yetişdirirlər:** "Yerli məhsullardan 20-30 gün əvvəl yetişəcək meyvələr. 3 cür ərik, şaftalı, yapon alçası və üzüm əkmişik. Bu il ilkin olaraq 500 kiloqramadək şaftalı və nektarin topladıq. Çox dadlı, yerli sortlardan da qat-qat ləzzətli meyvələrdir. İnşallah, gələn ilin aprelindən daha çox həcmdə məhsulu bazara çıxara biləcəyik".

**İş adamı deyir ki, yeni sortları əkmək hər kəsin öz istəyi ilə olan işdir:** "Kiməsə məcburən həyətində yeni sort meyvə əkdirilmir. Yeni sortlar ancaq iri təsərrüfatlarda, sahibkarla tərəfindən əkilir. Buna görə də köhnə sortların sıradan çıxacağından ehtiyatlanmağa ehtiyac yoxdur".

❑ **DÜNYA,**
**"Yeni Müsavat"**



# Xəzərdə növbəti faciə: dəniz daha bir gənci uddu

**Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzinə Bakı şəhərinin Sabunçu rayonunda yaşıyan 1998-ci il təvəllüdlü Məmmədov Cavid Rəhman oğlunun dənizdə batması ehtimalı ilə bağlı məlumat daxil olub.**

Musavat.com Fövqəladə Hallar Nazirliyinin saytına istinadən bildirir ki, nazirliyin Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin xilasediciləri axtarışlara cəlb olunub. C.Məmmədovun cəsədi dalğıc-axtarış qrupu tərəfindən tapılaraq sudan çıxarılıb və aidiyyəti üzrə təhvil verilib.





# Bu gün üçüncü yer uğrunda görüşdü - baxmağa dəyərmi?

## İddialı komandalar mundiala üçüncü yer tutmaq üçün gəlmir, heç ikinci yer də təskinlik vermir...

**Bu gün Sankt-Peterburqda XXI dünya çempionatının üçüncülüyü uğrunda İngiltərə və Belçika millileri qarşılaşacaq. Görüş Bakı vaxtilə saat 18:00-da başlayacaq.**

İlk dəfə 1986-cı ildə dünya çempionatının yarımfinalına adlayan Belçika millisi Argentinaya 0:2 hesabı ilə uduzmuşdu. 32 il əvvəl üçüncü yer uğrunda görüşdə isə Belçika millisi Fransaya yenilmişdi - 2:4. 2018-ci il mundialında Fransaya 0:1 hesabı ilə uduzan belçikalılar yenə arzularına çata bilmədilər.

2014-cü il mundialında ingilislər qrupda İtaliya və Uruqvaya məğlub oldu, Kosta-Rika ilə heç-heçə edərək qrupdan erkən evə döndülər.

2016-cı ilin sentyabrından yığmaya rəhbərlik edən yerli məşqçi Qaret Sautqeyt əsasən gənclərdən ibarət komanda ilə mundiala gəlmişdi. Adamın olanı...

Belçika və İngiltərə bu mundialadək iki dəfə bir qrupda mübarizə aparıblar. 1954-cü il mundialında və 1980 Avropa çempionatında. 1954-cü ildə komandalar heç-heçə oynayıb. Avropa çempionatın qrup mərhələsində də oyun 1:1 hesabı ilə başa satıb. 1990-cı il mundialında isə 1/8 finalda İngiltərə 1:0 hesabı ilə qalib gəlib. Bundan başqa, komandalar 18 dəfə yoldaşlıq görüşündə qarşılaşıblar. Ümumilikdə keçirilən 22 qarşılaşmanın 15-də ingilislər qalib gəlib, yalnız 2 görüşdə məğlub olublar, 5 oyunda isə qalib müəyyənləşməyib.

Məlumdur ki, onlar bu mundialda da G qrupuna düşmüşdülər. Son turda hər iki komanda “pley-off”a vəsiqəni təmin etdikləri üçün əsasən ikinci heyətdə meydana çıxdılar və Belçika bir top vuraraq qrup lideri oldu.

İngiltərənin mundialın yarımfinalına kimi gəlib çıxması özü bir kiçik möcüzə idi. Çempionatın bütün oyunlarını izləyənlər də təsdiq edər ki, ingilislərin qrup mərhələsindən evə gedən Seneqaldan, 1/8-də mübarizəni dayandıran Meksikadan və Yaponiyadan xüsusi üstünlüyü yox idi. 1/4-də evə gedən Braziliyadan, Uruqvaydan, hətta heç həzm edə bilmədiyim Portuqaliyadan bir addım geridə qalan komanda idi.

Qrup mərhələsində yazıq Panamanın qapısına 6 top vurub mundiala ilk dəfə gəlmələrinə peşman etdilər, Tunisi zorla uddular. Belçikaya isə uduzdular. İngiltərə bu çempionatda daha çox püşkə minnətdar olmalıdırlar ki, bu gün 3 yer uğrunda oynayır. İngiltərə qarşısına güclü komanda çıxan kimi büdrədi və bu gözlənilən idi.

Xorvatiya ilə yarımfinal oyunundan əvvəl xeyli “hava vurmuşdular” İngiltərə komandasına. Xüsusilə ingilis mətbuatı bu şişirtmədə fəal olub. Amma nə ilə? Çempionatın bombardiri Harri Keyn, Rahim Sterlinq qaçıb, qaçıb yoruldular. Cavanları qınamaq olmaz, onlar hələ Premyer Liqada ancaq təcrübə toplayırlar.

İngiltərə bütün göstəricələrə görə Xorvatiyadan geridə qalırdı. İngiltərə isə mənim təxminimə görə, 30 dəqiqə oynadı. Erkən qol vurdular və 20 dəqiqə xorvatların həyəcanından istifadə edib qapıya yol axtardılar. Statistika da bunu təsdiqləyir. İnanmayanlar oyunun yekun statistikasını tapıb baxsın. Bütün göstəricilər qoca xorvatların üstün olduğunu təsdiqləyir.

İngiltərə bu çempionatda standart vəziyyətdən istifadə edə bilən komandalardan biri idi və bunu mübahisəsiz Xorvatiyadan yaxşı bacarırlar. Yeganə topu da standart vəziyyətdən vurdular, iki top da vura bilərdilər standart vəziyyətdən. Birini Şubasiçin yerinə komanda yoldaşı qapı xəttindən çıxardı, biri qapının yanında keçdi. Vəssalam. İngilis havası belə “fıs” çıxdı.

İngilislərin bu oyunla finala çıxması çox ləzzətli çempionatın dadını qaçırardı. Ədalətsiz olardı, hətta özlərindən çox güclü Fransanı nəsə bir təsadüfi qoldan udub çempion olsaydılar, lap biabırçılıq olardı. Amma Xorvatiya bu biabırçılığa icazə vermədi, qarşısında durdular, ingilislərə xüsusən ikinci hissədə futbolu necə oynamağı başa saldılar.

O üçlükdə İngiltərə yoxdur, Fransa var, Belçika var... Xorvatiya heç şübhəsiz bu çempionatın ən yaxşı üç komandası sırasında birinci yerdədir. Arqumentləri sadalamaq fikrim yoxdur, bu komandanı izləyənlər, rəğbət bəsləyənlər bilir. Xorvatiyanın finalda olması ədalətlidir. Final haqda yazanda bu mövzuya yenə qayıdarıq...

Bu gün İngiltərə və Belçika qarşılaşması xüsusi maraq kəsb etmir. Mundialda yeganə oyundur ki, baxmamaq da olar. Bəli, FİFA reytinqinə birbaşa təsir edən, pul mükafatı olan 3-cü yer qarşılaşması da komandalar üçün çox mühümdür. Amma futbol üzrə dünya çempionatı yeganə çempionatdır ki, iddialı komandalar üçüncü yer tutmaq üçün gəlmir, heç ikinci yer də təskinlik vermir. Çempion!.. Dünya çempionu! Dörd il daşınacaq bir titul! Fikirləşin, Xorvatiya bunu haqq edir, yoxsa Fransa? Finala nə qaldı ki...

3-cü yerə görə... Məncə, Belçika versin bu oyunu ingilislərə. O gənclər üçün bir motivasiya olar. Belçikanın da bu çempionata 3-cülük üçün gəlmədiyi dəqiqdir.

Az qala unutmuşdum. Bu gün çempionatın bombardirləri sırasında olan Harri Keyn (6) və Romelu Lukaku (4) hesablarındakı top sayını artıra bilərlər.

❑ **Nazim SABİROĞLU,**
**“Yeni Müsavat”**







YENİ MÜSAVAT

Son səhifə

N 151 (7040) 14 iyul 2018



## Şirniyyatı çox sevən insan... cinayətkar ola bilərmiş

Uşaqlıqda hər gün şokolad və şirni yeyən uşaqlar sonralar - yetkin həyatlarında aqressiv olurlar. Böyük Britaniyanın Kardiff Universitetinin (Cardiff University) alimləri tərəfindən aparılmış tədqiqatın nəticələri bunu deyir. Tədqiqataa həyat tərzi 10 il ərzində sənədləşdirilmiş cinayətkarlar cəlb olunublar. Məlum olub ki, tədqiqatın zorakı əməllərə görə məhkum edilmiş 29-34 yaş arası obyektlərindən 69 faizi uşaq vaxtı, demək olar ki, hər gün konfet yeyibmiş. Müqayisə üçün söyləyək ki, qeyri-zorakı qanun pozuntularına görə məhkum edilmişlərin yalnız 42%-i uşaqlıqda müntəzəm surətdə şirni ilə təmin olunub. Qəddarlıqla şirni qəbulu arasında qanunauyğunluq hətta bütün başqa amillər nəzərə alındıqdan sonra belə saxlanılırdı. Alimlərin rəyinə görə, uşaqlara şirni və şokolad yedirdilməsi onlarda impulsiv davranışın inkişafına rəvac verir, bu cür davranış isə cinayətlərlə olduqca sıx surətdə əlaqədardır. Digər ehtimallara görə, şirnilər tərkibindəki qida əlavələrinə və ya qandakı şəkərin miqdarını tez-tez dəyişdirdiyinə görə öz-özlüyündə problemlər yaratmağa qadirdir.

# 74 milyon dollarlıq toy

Hindistanın Karnataka ştatının keçmiş naziri öz qızına dəyəri 74 milyon dollara çatan bir toy mərasimi təşkil edib. 43 yaşlı Qali Canardhana Reddi səkkiz bollivud rejissoru tutub və onlar mərasimin təşkilatı ilə məşğul olublar. Dəvətnamələrin üstünə qızıl tozu səpilib. Tədbir düz 5 gün boyunca davam edib. Qonaqları yerli tanınmışlar əyləndiriblər. Toy zamanı nümayiş etdirilən rolikdən də bəlli olur ki, gəlin məşhur dizaynerlərə aid bəş geyim dəyişir. Bəyi isə beş ağ at əhatə edir. Gəlinin valideynləri də fonoqrama ilə mərasim üçün xüsusi hazırlanmış mahnı ifa ediblər. Qəzetin xəbərinə görə, hindli qızın geyimi 2.5 milyon dollar təşkil edib. Onun zinət əşyaları isə 12.4 milyon dollar olub. Reddi Hindistanın ən varlı siyasətçilərindən sayılır. 2004-cü ildə o, Karnatakada dəmir yataqlarındakı qiymətli əşyaları əldə etmək üçün lisenziya alıb.



# Niyə ana olmaq üçün yay fəsli idealdır?

"The İndependent" yeni araşdırmaya istinadən yazır ki, qadınlar bir qayda olaraq dünyaya uşaq gətirmək üçün yaz-yay aylarını hədəfləyirlər.

ABŞ-da aparılmış araşdırma göstərib ki, anaların ilk uşaqları iyun-sentyabr ayında, noyabr-martla müqayisədə daha çox dünyaya gəlirlər.

Araşdırma hesabatında deyilir ki, gənc qadınlar və ələlxüsus da ABŞ-ın qışı sərt keçən yerlərində yaşayanlar uşaqlarını daha çox ilin ilk altı ayı ərzində dünyaya gətirməyə meyllənirlər.

"The İndependent" qəzetində dərc olunmuş məqalədə deyilir ki, cənub yarımkürəsinə daxil ölkələrdə bunun tamamilə əksi baş verir. Orada daha çox uşaq dekabr-mart aylarında doğulur. Çünki cənubun yayı, şimalın qışıdır. Oxford Universitetindən araşdırmanın həmmüəllifi doktor Climent Quintana-Domenique deyib ki, doğuş mövsümünün planlı şəkildə seçilməsi ilk dəfə olaraq sübut edilib.

Alim deyib ki, anaların uşaq doğmaq üçün "daha münasib" fəsil seçməsi tamamilə məntiqlidir. Maraqlıdır ki, Britaniyanın babycentre internet saytı iyun-oktyabr ayları arasında doğulanların, "qış uşaqları" ilə müqayisədə daha ucaboy və iri sümüklü olduğunu yazır.

Sayt iddia edir ki, bu, yay mövsümündə D vitamininin təbii qəbulu üçün daha böyük imkanların növcud olması ilə bağlıdır.





## Artıq robotlar insanların həyatından çıxır

Yaponiyada indiyədək robotların görməli olduğu işi insanlar görür - işıqforun yerinə yol polisi əməkdaşı işləyir, ofis kompüterlərində isə yaşı 10 ili keçmiş proqram təminatından hələ də istifadə olunur. BBC-nin araşdırmasına görə, mağazalarda indiyədək faks və kaset maqnitofonlarına rast gəlmək olar, hətta "Sony" kimi nəhəng şirkət də indinin özündə faks maşınlardan istifadə edir. "Yaponiya şirkətləri informasiya texnologiyalarının tətbiqi baxımından xarici rəqiblərindən 5-10 il geri qalır",- deyə kompüter sistemləri sahəsində ixtisaslaşan "Starfighter" şirkətinin başçısı Patrik McKenzi deyir.

Yaponiyadakı dükanlarda ödənişi mobil telefon vasitəsilə etmək mümkün olsa da, şirkətlərdə bu üsuldan istifadə edənlərə, Skype və ya Dropbox proqramlarını işlədənə rast gəlmək, demək olar ki, mümkün deyil. Bununla belə, Yaponiya dünyada ən geniş inkişaf etmiş internet infrastrukturuna malikdir.





**QOÇ** - İmkan daxilində oturaq işlərdən uzaqlaşmalı, səyyar fəaliyyətlə məşğul olmalısınız. Qarşılıqlı münasibətlərdə isə hər şey ürəyinizcə olacaq. Vaxt tapıb təbiət qoynuna da çıxın.

**BUĞA** - Səhhətinizdəki nasazlığa dözə bilsəniz, bu təqvimin ümumi çalarları ürəyinizcə olacaq. Hətta nahar ərəfəsində şəxsi büdcənizdə artım da gözlənilir. Gün şüasında çox durmayın.

**ƏKİZLƏR** - Zodiak işarələri arasında yeni işlərə başlamaq üçün bu gün daha çox sizin bəxtiniz gətirə bilər. Nəzərə alın ki, bu gündən etibarən uzun müddət qarşınızda sipər olan qapılar açılacaq.

**XƏRÇƏNG** - Bir tərəfdən səhhətinizdəki nasazlıq, digər tərəfdənsə işlərinizin ləng inkişafı sizdə çaşqınlıq yarada bilər. Özünüzü itirməyin. Sövdələşmələrdə risk etməyə dəyməz.

**ŞİR** - Əməkdaşlıq zəminində bəxtiniz gətirə bilər. Çünki ulduzların düzümü istənilən sövdələşmədən xeyir qazanacağınızı bəyan edir. Xüsusən də günün ikinci yarısı sürprizləriniz olacaq.

**QIZ** - Qaynar iyulun bu təqvimində hamıdan şanslı olacağınız gözlənilir. Varlanma ehtimalınız da var. Amma uzaq səfərlərə çıxmaq üçün əlverişli ərəfə deyil. Axşam qonaq getmək olar.

**TƏRƏZİ** - Yalnız maliyyə işlərinizdə müəyyən geriləmə mümkündür. Qalan məsələlərdə isə sevindirici məqamlarınız çox olacaq. Qohum-qonşularla, eləcə də həmkarlarınızla mehriban olun.

**ƏQRƏB** - Dəstəyə ehtiyacınızın olduğunu nəzərə alan ulduzlar bu gün sizə kömək göstərəcək. Öz növbənizdə siz də aktivlik göstərməlisiniz. Saat 14-dən sonra daha cəsarətli addımlar atın.

**OXATAN** - İxtiyarınızda olan bu təqvimdə ehtiyatlı olmalısınız. Bir məsələdə deyilmişkən, "soyuq su da dodağınızı yandıra bilər". Bunun üçün ilk növbədə riskli hərəkətlərdən, tələsik qərarlardan uzaq olun.

**OĞLAQ** - Müəyyən məziyyətlərinə görə gərgin gündür. Az qala hər tərəfdən sizə manelər olacaq. Özünüzdə təpər tapıb hər havaya oynamayın. Saat 15-dən sonra vəziyyətiniz sabitləşəcək.

**SUTÖKƏN** - Çıxardığınız hər bir qərarı dəfələrlə götür-qoy edin. Yanlışlığa yol verməyin. İlk növbədə nüfuzunuzu qoruyun. Astroloji göstəricilər yeni ideyalara yiyələnəcəyinizdən xəbər verir.

**BALIQLAR** - Havaların qaynarlaşması sizin üçün o qədər də səmərəli deyil. Bu səbəbdən diqqətli və alicənab olmalısınız. Yeni təkliflər aldığınız təqdirdə imtina etməyə tələsməməlisiniz.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Kişi tutuquşusu ilə dalaşıb.... elə biliblər, arvadını söyür



Kanadanın Brayton şəhər sakinləri qonşularının öz tutuquşusu ilə dava etməsinə görə polisə müraciət ediblər. Qonşuları quşu onun həyat yoldaşı kimi anlayıblar və kişinin öz arvadı ilə dalaşdığını düşünərək belə bir şikayət ediblər. Polisə eyni vaxtda bir neçə nəfər müraciət edib və deyiblər ki, qonşuları hündürdən arvadı ilə dalaşır, onu ölümlə təhdid edir. Hadisə yerinə gələn polislər görüblər ki, kişi evdə təkdir. "Biz evə girəndə gördük ki, kişi öz tutuquşusuna qışqırır, çünki sonuncu onu söyürdü". Bunu da polis deyib və əlavə edib ki, kanadalı spirtli içki içsə də, tutuquşunun həyatına dair hər hansı təhlükə olmayıb. Polislər kişini həbs etməyiblər, ona qarşı hər hansı inzibati tədbir görülməyib.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

Lisenziya N: B 114
SAYI: 5.100